

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 dekabr 2024-cü il, çərşənbə axşamı
№ 227 (6813)
Qiymәti 60 qəpik




# Zaman yetişib...

## Tarixi ədalətsizliyə son qoyulmalıdır!

Bax səh. 2

# 106 yaşlı Azərbaycan parlamenti...

Bax səh. 2

# Orta Dəhliz nəhəng arteriyaya çevrilir




Bax səh. 3

## İqtisadi əməkdaşlığın yeni gündəliyi...

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində iki ölkə arasında ticarət və investisiyaların təşviqi imkanları müzakirə edilib. Krallığın investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycanla iqtisadi əlaqələrin son illərdə inkişafında biznes dairələri arasında işgüzar münasibətlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Səudiyyə Ərəbistanının energetika naziri Əbdül Əziz bin Salman Əl-Səud isə hazırda ölkələr arasında daha çox sərməyə təşviqlərinə səbəb olan "yaşıl enerji" gündəliyinin uğurlarına diqqət çəkib. Nazir qeyd edib ki, bərpa olunan təmiz enerji keçid hər iki ölkənin dövlət siyasətinə çevrilib və bu çərçivəyə əsasən, potensial layihələr üzrə əməkdaşlıq genişləndirilməkdədir. Səudiyyənin "yaşıl enerji" sahəsində nüfuzlu şirkətləri Azərbaycana bu sahədə bütün zəruri dəstəyi verməyə və sərmayə imkanlarını artırmağa hazırdır.

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadi əlaqələr əvvəlki illərdə əsas etibarilə neft-qaz və ənənəvi enerji sahələrinə söykənirdisə, son 2 ildə iqtisadi coğrafiya həm sahələr üzrə, həm də dinamika baxımdan xeyli genişlənib. Münasibətlərin ritmində qeyri-neft sektoru ön plana çıxmaqla biznes blokları arasında işgüzar təmasları da şaxələndirib. Hazırda...

Bax səh. 3

## İpoteka Fondu daha çox kredit versə də...

Bax səh. 4

## Sahibkarlar üçün sağlam mühit

Bax səh. 4

## Ukrayna Rusiya ilə razılaşmaq istəyir?

Bax səh. 7

## Paşinyan - Makron cütlüyünün yeni "Paris sərgüzəşti"

Bax səh. 6

## Tbilisi küçələrində Qərb tamaşası

Qonşu Gürcüstanda oktyabrın 26-da keçirilən parlament seçkilərindən sonra başlayan və Baş nazir İrakli Kobaxidzenin Gürcüstanın Avropa İttifaqına inteqrasiyası ilə bağlı danışıqların 2028-ci ilə qədər dayandırılması barədə noyabrın 28-də verdiyi bəyanatdan sonra daha geniş vüsət alan etirazlar artıq səngimək üzrədir. Başda prezident Salome Zurabişvili olmaqla birləşmiş müxalifətin inqilab yolu ilə hakimiyyəti devirmək ssenarisi baş tutmayıb. Artıq permanent aksiyaların keçirildiyi Rustaveli prospektində, parlamentin binası önündə və yaxınlıqdakı digər küçələrdə nisbi sakitlik hökm sürür.

Ancaq qonşu ölkədə siyasi qarşıdurma səhifəsinin tam şəkildə bağlandığı fikrini ifadə etmək hələ tezdir. Qarşıdan yeni qayda ilə keçiriləcək prezident seçkiləri gəlir. Ehtimal olunur ki, prezident seçkilərindən sonra etirazların yeni dalğası başlaya bilər.

Elan olunan yekun nəticələrə əsasən, hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası on birinci çağırış Gürcüstan parlamentində 150 mandatdan 89-nu qazanıb. MSK-nın yekun protokoluna görə, qalan 61 mandatdan 19-na "Dəyişiklik üçün Koalisiya", 16-sına "Birlik - Milli Hərəkat", 14-nə "Güclü Gürcüstan", 12-nə isə "Qaxariya Gürcüstan üçün"...

Bax səh. 6



## Fon der Leyenə qarşı iddialar rəsmiləşir...

Bax səh. 5



## 24 ildən sonra...

Bax səh. 5

# Zaman yetişib...

## Tarixi ədalətsizliyə son qoyulmalıdır!

### İlham Əliyev: Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır

Bu günlərdə Azərbaycan dövlət və cəmiyyət olaraq zamanında indiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın ləyaqətli şəkildə tarixi yurd yerlərinə qayıdışı istiqamətində daha bir addım atmış oldu. Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcmasının (QAİ) "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfrans uğurla baş tutdu. 51 ölkədən gəlmiş 100-dən çox nümayəndənin iştirakı ilə aparılan müzakirələrdə və qəbul olunan yekun sənəddə qayıdış hüququnun beynəlxalq konvensiyalarda da təsbit olunduğu diqqətə çatdırılmaqla soydaşlarımızın doğma yurd yerlərinə dönmələri üçün Ermənistan tərəfindən zəruri tədbirlərin görülməsinin vacibliyi vurğulanıb. Zamanında ağır məhrumiyyətlərə düçar olmuş insanların haqqı tanınmalı və tarixi ədalətsizliyə son qoyulmalıdır. Bunun üçün artıq zaman yetişib.

## Dövlətin güclü siyasi iradəsi və xalqın həmrəyliyi

Məqsədyönlü, milli maraqlardan qaynaqlanan siyasət həyata keçirən Azərbaycan dövləti hər mərhələdə öz qarşısına yeni hədəflər qoyur və bu hədəflərə çatmaq üçün əməli fəaliyyətlər həyata keçirir. 44 günlük Vətən müharibəsində və 23 saatlıq



lokal xarakterli antiterror tədbirlərində qazanılan parlaq qələbələr sayəsində biz 30 il ərzində ölkənin gündəliyinin mərkəzində dayanan əsas məsələnin həllinə nail olduq - ərazi bütövlüyümüzü və suverenliyimizi tam təmin etdik.

Əldə etdiyimiz möhtəşəm qələbələrimizdən sonra Prezident İlham Əliyev bildirdi ki, biz zəfərlərimizi uzun müddət istismar mövzusuna çevirə bilmərik. Bəli, bəhs olunan qələbələr tariximizin şanlı səhifəsidir. Onları heç kim bizə hədiyyə etməyib. Biz bu zəfərləri dövlətin gücü, əsgər və zabitlərimizin şücaətləri, xalqımızın həmrəyliyi sayəsində qazanmışıq. Ancaq Azərbaycan daim inkişafda olan, irəliyə baxan bir dövlətdir. İndiki strateji mərhələdə dövlət və cəmiyyət üçün əsas ümummilli ideyalardan biri isə - soydaşlarımızın tarixi yurd yerlərinə qayıdışını təmin etməkdən ibarətdir. Hazırda bu ümummilli ideyanın reallaşmasına Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev güclü siyasi iradə ortaya qoyur. Eyni zamanda, cəmiyyətimizdə bu məsələyə həssas yanaşma var. Xalqımız yeni mərhələdə yeni ümummilli ideyamızın həyata keçirilməsinə də güclü dəstək verir. "Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir", - deyə Prezident İlham Əliyev "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubunda vurğulayıb.

## Soydaşlarımızın qayıdışı üçün tarixi və hüquqi zəmin

Qərbi Azərbaycan İcması soydaşlarımızın qayıdış hüququnu beynəlxalq müstəvilərdə müzakirələrə çıxararkən ilk növbədə tarixi faktlardan çıxış edir. Bəli, ortada hələ də həllini tapmayan böyük ədalətsizlik var. Zamanında soydaşlarımızın Qərbi Azərbaycandan zorla köçürülməsi öz miqyasına və xarakterinə görə dünyada qeydə alınan eyni məzmunlu hadisələr sırasında xüsusi qəddarlıqla törədilməsi ilə diqqət çəkir. Dünya tarixində bir yüzillikdə eyni bir toplumun dörd dəfə ən ağır şərtlər altında dəhşətli deportasiyalara məruz qalması faktına rast gəlinmir. Qərbi Azərbaycandan qovulan soydaşlarımız XX yüzillikdə məhz belə acı tale ilə üzləşiblər. Onlar 1918, 1921, 1948-1953 və 1987-1991-ci illərdə olmaqla doğma ev-eşiklərindən zorla çıxarılıblar. Ən acınacaqlı cəhətlərdən biri də ondan ibarətdir ki, Qərbi Azərbaycanda dağlıq zonada yaşamağa öyrəşmiş soydaşlarımızın yeni yaşayış ünvanları kimi bir qayda olaraq aran bölgələri seçilib ki, bu da adaptasiyanın çox ağır keçməsi ilə nəticələnib. Sonuncu deportasiyayadək indiki Ermənistan ərazisində 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə soydaşlarımız məskunlaşmışdılar . Onların hamısı cəmi 3 il ərzində yurd yerlərindən zorla çıxarıldı. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. Eyni zamanda, Qarabağda da xalqımıza qarşı cinayətlər törədildi. Yüz minlərə insanın taleyinə bu şəkildə




qərar verilməsi humanizm dəyərlərinin tamam unudulması anlamına gəlir.

Qeyd etdiyimiz kimi, qayıdış hüququ həmçinin beynəlxalq konvensiyalarda da təsbit olunub. Təsadüfi deyildir ki, konfransda qəbul olunan yekun sənəddə qayıdış hüququnun beynəlxalq norma və prinsiplərə uyğun olduğuna xüsusi vurğu edilib. Sənəddə də bildirildiyi kimi, qayıdış hüququ beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunub və təməl insan hüququ kimi tanınır. Qayıdış hüququnun əsasları arasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt, Pinheiro Prinsiplərini və beynəlxalq adət hüququnu misal göstərə bilərik. Beynəlxalq sənədlərdə əksini tapan müddəalar mütləq qaydada XX yüzillikdə dörd dəfə amansız deportasiyalara məruz qalan soydaşlarımıza və onların varislərinə də şamil edilməlidir. Ermənistanın manipulyasiyalarla zaman udmağa çalışması heç nəyi dəyişməyəcək. Rəsmi İrəvan soydaşlarımızın tarixi yurd yerlərinə qayıtmaq istəklərini Azərbaycanın bu ölkəyə ərazi iddiaları anlamında təqdim etməyə çalışır. Bu, Ermənistanın növbəti yalanıdır. Dünya N.Paşinyanın və onun komandasında təmsil olunan məmurların bu kimi yalanlarına aldanmamalıdır. Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşıb. Aydın şəkildə dərk olunur ki, beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür. Dünya birliyi həmçinin Ermənistana təzyiq göstərməli və bu ölkəni azərbaycanlıların qayıdış hüququnu tanımağa, onların yurd yerlərinə ləyaqətli şəkildə geridönüşünə lazımi şərait yaratmağa məcbur etməlidir.

***Mübariz FEYİZLİ***

# 106 yaşlı Azərbaycan parlamenti...

***Nardar BAYRAMLI***

## Xalq Cümhuriyyətinin parlamenti 17 ay fəaliyyət göstərsə də, 145 iclas keçirib, 230-a yaxın qanun qəbul edib

Azərbaycan xalqı zəngin dövlətçilik ənənələrinə sahibdir. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması isə tariximizin ən mühüm - şanlı və qürurlu səhifələrindən birini təşkil edir. Olduqca mürəkkəb tarixi dönəmdə və şəraitdə yaranan Xalq Cümhuriyyəti 23 ay mövcud olmasına baxmayaraq, böyük bir coğrafiyanın siyasi həyatında mühüm rol oynadı. Bu dövrdə müxtəlif sahələri əhatə edən və strateji əhəmiyyətə malik olan çox mühüm addımlar atıldı və tarixi qərarlar qəbul olundu.

1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin yaradılması da bu baxımdan tarixi əhəmiyyətə malikdir. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlətçilik yolunda ardıcıl və məqsədyönlü addımların atılması təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi həyatı üçün əlamətdar oldu. Bu dövrdə parlament qəbul etdiyi qanun və qərarlarla milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsinə töhfələr verib.

**100-ə yaxın nümayəndənin iştirak etdiyi beynəlxalq parlament konfransı**

Yeri gəlmişkən, Azərbaycan parlamentinin yaradılmasının 106-cı ildönümü münasibətilə dekabrın 7-də Milli Məclisdə "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransı keçirilib. Konfransda 13 ölkənin parlamentindən və beynəlxalq təşkilatlardan 100-ə yaxın nümayəndə iştirak edib.

Tədbirdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, ölkələrimizin siyasi həyatında parlamentlərin oynadığı rol danılmazdır. Belə ki, onlar qanunvericilik hakimiyyəti funksiyasını yerinə yetirməklə, dövlətin idarə olunmasında fəal iştirak edirlər. Qeyd edilib ki, müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan olan Azərbaycan Parlamenti öz fəaliyyəti dövründə milli dövlətçiliyin və müstəqilliyin möhkəmləndirilməsi, siyasi, iqtisadi, mədəni, elmi və digər sahələrdə hüquqi bazasının yaradılması istiqamətində mühüm addımlar atmışdı. Parlament cəmi on yeddi ay fəaliyyət göstərsə də, həmin dövr ərzində 145 iclas keçirib, 270-dən çox qanun layihəsini müzakirəyə çıxarıb, 230-a yaxın qanun qəbul edib.



Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etməsinin parlamentimizin tarixində yeni dövrün başlanması ilə yadda qaldığını deyən S.Qafarova Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışının ölkəmizdə sabitliyin qorunub saxlanması və inkişaf etdirilməsi, eyni zamanda, yeni parlament institutunun formalaşdırılması baxımından həyati əhəmiyyət daşıdığını bildirib. Diqqətə çatdırılıb ki, bu gün Milli Məclis Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar və qələbələr qazandıran milli inkişaf strategiyasının həyata keçirilməsi prosesinə öz qanunvericilik fəaliyyəti ilə töhfə verir.






**TBMM nümayəndələrinin çıxışlarında nələr vurğulandı?**

Sonra konfransda Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay çıxış edərək, Azərbaycan parlamentinin 106-cı ildönümü münasibətilə təbriklərini və xoş arzularını çatdırıb. O, Azərbaycan parlamentinin öz fəaliyyətini demokratik prinsiplər əsasında qurduğunu qeyd edib. Eyni dilə, dinə, mədəniyyətə mənsub Türkiyə ilə Azərbaycan arasında möhkəm dostluq və qardaşlıq əlaqələrinin olduğunu, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın dinamik inkişaf etdiyini bildirib.

TBMM-in Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxışında Azərbaycan parlamentinin tarixi günü ilə bağlı xoş arzularını söyləyib, müsəlman Şərqinin ilk demokratik respublikasının parlamentinin mühüm işlər gördüyünü deyib. O, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu qeyd edərək, ölkəmizin Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini məmnunluqla vurğulayıb.

Tədbirdə çıxış edən bəzi deputatlar müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlətin Azərbaycanda elan edilməsi ilə həm də ölkə tarixində parlamentarizmin əsasının qoyulduğunu diqqətə çatdırıblar. Vurğulanıb ki, Xalq Cümhuriyyəti dövründə ilk dəfə qadınlara səsvermə hüququ verilib. Bu baxımdan Azərbaycan parlamentinin öz yeri, rolu və ənənələri var.

Beynəlxalq konfransda Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov, Qazaxıstan parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin katibi Darxan Kıdırali, Özbəkistan Ali Məclisi Senatının Gənclər, mədəniyyət və idman komitəsinin sədri Orzigül Kozixonova, Tacikistan Ali Məclisi Milli Məclisinin Sosial məsələlər, səhiyyə, elm, təhsil, mədəniyyət, gənclər və qadın siyasəti komitəsinin sədri Məhmədşoh Gülzoda, TBMM-in Cümhuriyyət Xalq Partiyası Qrupunun sədr müavini Murat Emir, İraq Nümayəndələr Şurasının İnsan hüquqları komitəsinin sədri Ərşad Əl-Salihi, Belarus Milli Assambleyası Respublika Şurasının Qanunvericilik və dövlət quruculuğu məsələləri üzrə daimi komitəsinin sədr müavini Aleksey Vasilyev, Gürcüstan parlamentinin İnsan hüquqları və vətəndaş inteqrasiyası komitəsinin sədr müavini Savalan Mirzəyev, TBMM-in Milliyyətçi Hərəkat Partiyası Qrupunun sədr müavini Filiz Kılıç, Malayziya Nümayəndələr Palatasının Beynəlxalq əlaqələr və ticarət komitəsinin sədri Vonq Çen, TBMM-in Ədliyyə komissiyasının sədri Cüneyt Yüksel, Qırğızıstan Joqorku Keneşinin Azərbaycanla əməkdaşlıq üzrə dostluq qrupunun rəhbəri Səidbek Zulpuyev, TBMM-in Rəqəmsal Media Komissiyasının sözçüsü Zeynep Yıldız, TBMM-in üzvü Süreyya Öneş Derici, Pakistan Milli Assambleyasının üzvü Sərdar Əmmar Əhməd Xan Leqhari, TBMM-in üzvü Kürşad Zorlu, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək fikirlərini bölüşüblər.

**Parlamentarilər azad olunmuş ərazilərə səfər ediblər**

Xarici ölkələrin parlamentariləri ölkəmizin qurduğu dostluq əlaqələrindən, Azərbaycanda hökm sürən tolerantlıqdan, demokratik inkişafdan məmnunluqlarını ifadə ediblər. Ölkəmizin beynəlxalq məsələlərlə bağlı uğurlu siyasət yürütdüyünü söyləyiblər. Onlar təmsil etdikləri ölkələrin Azərbaycanla hərtərəfli əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını deyiblər. Bildirilib ki, Azərbaycan beynəlxalq səviyyədə təhlükəsizliyin təmin edilməsinə öz töhfələrini verir. Ölkəmiz tərəfindən mədəniyyətlərarası, dinlərarası dialoqun təbliği sahəsində mühüm addımlar atılıb. Qeyd edilib ki, bu gün Azərbaycanda multikulturalizm ənənələri formalaşıb. Bakıda keçirilən bir çox mühüm əhəmiyyətli beynəlxalq tədbirlər beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

"Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransının iştirakçıları Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə də səfər ediblər. Onlar əvvəlcə Füzuli şəhəri ilə tanış olub, sonra Şuşa, Xankəndi və Xocalını ziyarət ediblər.

# İqtisadi əməkdaşlığın yeni gündəliyi...

## Səudiyyə Ərəbistanı Azərbaycanda “yaşıl layihələr”ə yeni sərmayə niyyətlərini bəyan edib

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində iki ölkə arasında ticarət və investisiyaların təşviqi imkanları müzakirə edilib. Krallığın investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih Azərbaycanla iqtisadi əlaqələrin son illərdə inkişafında biznes dairələri arasında işgüzar münasibətlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Səudiyyə Ərəbistanının energetika naziri Əbdül Əziz bin Salman Əl-Səud isə hazırda ölkələr arasında daha çox sərmayə təşviqlərinə səbəb olan “yaşıl enerji” gündəliyinin uğurlarına diqqət çəkib. Nazir qeyd edib ki, bərpa olunan təmiz enerjiyə keçid hər iki ölkənin dövlət siyasətinə çevrilib və bu çərçivəyə əsasən, potensial layihələr üzrə əməkdaşlıq genişləndirilməkdədir. Səudiyyənin “yaşıl enerji” sahəsində nüfuzlu şirkətləri Azərbaycana bu sahədə bütün zəruri dəstəyi verməyə və sərmayə imkanlarını artırmağa hazırdır.

### Birgə İşgüzar Şura ticari-investisiya mübadiləsini təşviq edəcək

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadi əlaqələr əvvəlki illərdə əsas etibarilə neft-qaz və ənənəvi enerji sahələrinə söykənirdisə, son 2 ildə iqtisadi coğrafiya həm sahələr üzrə, həm də dinamika baxımdan xeyli genişlənib. Münasibətlərin ritmində qeyri-neft sektoru ön plana çıxmaqla biznes blokları arasında işgüzar təmasları da şaxələndirib. Hazırda Səudiyyə şirkətləri ölkəmizin sənaye, nəqliyyat, rabitə, İKT, infrastruktur, turizm, rəqəmsal innovasiyalar, əmək, məşğulluq və digər sahələrdə təmsil olunmaqla iqtisadi panoramını zənginləşdirib.

2022-ci ildə Azərbaycanın İqtisadiyyat Nazirliyi və Səudiyyə İnkişaf Fondu arasında imzalanmış Anlaşma Memorandumu prioritet sahələr üzrə layihələrin maliyyələşdirilməsi üzrə dərin zəmin yaradıb, ərəb sərmayəçiləri sənaye və aqrar sahələrdə bir sıra layihələrə maliyyə ayrılmasını təmin edib.

2022-ci ildə yaradılmış Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurası əməkdaşlığın yeni gündəliyini müəyyən edib. Qurum sahibkarların təşəbbüslərini dəstəkləmək, onlar arasında birbaşa əlaqələrin qurulmasını təşviq etmək, qarşılıqlı



səfərlərin, görüşlərin və müxtəlif tədbirlərin təşkilinə kömək etmək, bizneslər arasında mal mübadiləsini həyata keçirmək, ticarət mübadiləsini artırmaq missiyası daşıyır. 2023-cü ildə ticarət dövriyyəsinin dəyəri 14 milyon dollar təşkil etsə də, tərəflər bundan razı deyil. Səudiyyə Ərəbistanının Palatalar Federasiyasının İdarə Heyətinin sədri Həsən Əl-Huvaizinin vurğuladığı kimi, iki ölkə arasındakı iqtisadi-ticarət əlaqələr mövcud potensialları tam əks etdirmir, ticari imkanlar daha böyükdür. Ona görə də, mal mübadiləsini dəfələrlə artırmaq imkanları var və müzakirələrdə bu məsələ ilk yerlərdən birini tutur.

### 5 milyard dollar həcmində “yaşıl investisiya”...

Səudiyyə Ərəbistanı “yaşıl enerji” sahəsində əməkdaşlığın perspektivlərinə də inamla yanaşır, Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizədə yürütdüyü iradəli siyasətin və region ölkələri ilə bu istiqamətdə sıx əməkdaşlığın onun üçün də fayda verəcəyinə əmindir. Xüsusilə də Azərbaycanın COP29-a Sədr ölkə kimi ekoloji məsələlərdə daha təşəbbüskar mövqe nümayiş etdirməsi bu ölkə üçün böyük maraq doğurur. Bu baxımdan rəsmi Ər-Riyad iqlim dəyişikliyinin fəsadları ilə üzləşən ölkələrdən biri kimi ekoloji platformalarda yer almaq, irəli sürülən

**2022-ci ildə yaradılmış Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurası əməkdaşlığın yeni gündəliyini müəyyən edib. Qurum sahibkarların təşəbbüslərini dəstəkləmək, onlar arasında birbaşa əlaqələrin qurulmasını təşviq etmək, qarşılıqlı səfərlərin, görüşlərin və müxtəlif tədbirlərin təşkilinə kömək etmək, bizneslər arasında mal mübadiləsini həyata keçirmək, ticarət mübadiləsini artırmaq missiyası daşıyır. 2023-cü ildə ticarət dövriyyəsinin dəyəri 14 milyon dollar təşkil etsə də, tərəflər bundan razı deyil**

qlobal çağırışlardan faydalanmaq istəyir.

Alternativ enerji strategiyası üzrə yeni planlara əsasən, ölkələrimiz arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq imkanları daha da böyüyüb, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə Azərbaycanda 240 MVT-lıq külək enerjisi parkının qurulması ilə bağlı imzalanmış müqavilə yaşıl hidrogen sahəsində dərin əməkdaşlığın əsasını qoyub. Ötən il şirkət 246 milyon dollarlıq maliyyə sazişini təsdiq edib və qarşıdakı dövrdə daha irihəcmli sərmayə layihələrinin gerçəkləşməsi nəzərdə tutulur. “Acwa Power” şirkətinin regional direktoru Abid Malik bildirib ki, investisiya əsasən Azərbaycanın bərpaolunan enerji sahəsinə 5 milyard dollara yaxın sərmayə yatırılacaq.

### Səudiyyə kapitalı azad ərazilərdə...

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa proseslərini, “Böyük Qayıdış” proqramını diqqətlə izləyən

**Alternativ enerji strategiyası üzrə yeni planlara əsasən, ölkələrimiz arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq imkanları daha da böyüyüb, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə Azərbaycanda 240 MVT-lıq külək enerjisi parkının qurulması ilə bağlı imzalanmış müqavilə yaşıl hidrogen sahəsində dərin əməkdaşlığın əsasını qoyub. Ötən il şirkət 246 milyon dollarlıq maliyyə sazişini təsdiq edib və qarşıdakı dövrdə daha irihəcmli sərmayə layihələrinin gerçəkləşməsi nəzərdə tutulur**

və bu bölgənin reinteqrasiya proseslərində xarici iş adamlarına yaradılan əlverişli iş imkanlarını müsbət qiymətləndirən səudiyyəli iş adamları investisiya qoyuluşunda iştirak məsələsini istisna etmirlər. Qeyd edək ki, 2022-ci ilin dekabrında Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falihin rəhbərlik etdiyi böyük bir nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində azad edilmiş ərazilərə baş çəkərək bölgənin resursları və investisiya imkanları ilə yaxından tanış olub. Həmin səfər zamanı Səudiyyə Ərəbistanından olan özəl şirkətlərin Qarabağın bərpası prosesində iştirakının nəzərdən keçirildiyi vurğulanıb, Səudiyyə İnkişaf Fondu və Səudiyyə İnvestisiya Fondu tərəfindən maliyyə vəsaitinin ayrılacağı bildirilib.

Səudiyyə Ərəbistanı və Azərbaycan arasında təşkil edilkən işgüzar görüşlər, forumlar iqtisadi-ticari mübadiləni genişləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir və öz nəticələrini verməkdədir.

*ELBRUS CƏFƏRLİ*

# Orta Dəhliz nəhəng arteriyaya çevrilir

## Nəqliyyat dəhlizi ilə yükdaşımaların həcmi 2024-cü ilin yanvar-oktyabr ayları ərzində 68 faiz artıb

2024-cü ilin yanvar-oktyabr ayları ərzində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə yükdaşımaların həcmi 68 faiz, konteyner daşımaları isə 2,7 dəfə artıb. Qazaxıstanın nəqliyyat naziri Marat Kabayev bildirib ki, sözügedən dəhlizin təkcə Mangistau vilayəti üzrə dəmir yolu ilə 2,3 milyon ton, dəniz nəqliyyatı ilə isə 6,3 milyon ton yük daşınıb ki, bu da 2023-cü illə müqayisədə 3 faiz çoxdur. Ümumilikdə, Orta Dəhlizin digər qovşaqlarından həyata keçirilən xətlərin hər birində əhəmiyyətli artımlar qeydə alınıb.

### Kurık və Bakı Beynəlxalq Dəniz limanları yeni nəqliyyat zənciri formalaşdırıb

Qazaxıstanın Baş naziri Oljas Bektenov isə bildirib ki, ölkədəki mühüm nəqliyyat və logistika infrastrukturlarının tamamilə müasirləşdirilməsi və Orta Dəhlizə inteqrasiya edilməsi istiqamətində tədbirlər dayanmadan davam etdirilir.

Tədbirlər çərçivəsində Mangistau vilayətində uzunluğu 64 kilometr olan Kurık və Jetıbay kəndlərini birləşdirən respublika əhəmiyyətli yolun əsaslı təmiri başa çatdırılıb. Bu nəqliyyat qovşağı Kurık dəniz limanını Orta Dəhlizə birləşdirməklə Qazaxıstanın beynəlxalq nəqliyyat marşrutlarında imkanlarını artıracaq. Belə ki, Kurık-Jetibay yolu ən rentabelli və axıcı nəqliyyat xətti kimi beynəlxalq yük və daşınmaların birbaşa Kurık limanına yönləndirilməsində qısa və nəqliyyat sərfəliliyi baxımdan ən rahat infrastruktur şəbəkəsi hesab edilir. Əgər əvvəllər sürücülər Aktauda dayanmalı olurdusa, indi onlar Jetıbay kəndi vasitəsilə dəniz limanına daha tez və rahat çatacaqlar.

Mövcud nəqliyyat xətlərinin Orta Dəhlizlə birləşdirilməsi sayəsində 2024-cü ilin ötən 10 ayı ərzində Kurık dəniz limanı ilə yükdaşımaların həcmi də ən rekord həddə çatıb. Limanda 600-ə yaxın bərə, 16,5 mindən çox vaqon, 23,6 mindən çox yük və sərnişin daşıyan nəqliyyat vasitəsi xidmət göstərir ki, bu da uzaq Asiyadan Avropaya daşınmaların böyük artımlarını təmin etməyə imkan verəcək. Kurık limanı eyni zamanda, Azərbaycanın Qazaxıstan və dünya ilə liman bağlantısında mühüm rol oynayır. Bir neçə il əvvəl Türk Dövlətləri Təşkilatının (TDT) zirvə görüşü çərçivəsində Bakı Beynəlxalq Dəniz Limanı ilə Kurık Limanı arasında memorandum imzalanıb və yeni nəqliyyat zənciri formalaşıb. Aktau ilə yanaşı, həmin limandan daşınan beynəlxalq yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Limanına, oradan isə Gürcüstan, Türkiyə və Avropa ölkələrinə göndərilir. Son 2 ildə Ələt-Kurık-Ələt istiqamətində yükdaşımaların intensivləşməsi də bunu təsdiqləyir.

**Bir neçə il əvvəl Türk Dövlətləri Təşkilatının (TDT) zirvə görüşü çərçivəsində Bakı Beynəlxalq Dəniz Limanı ilə Kurık Limanı arasında memorandum imzalanıb və yeni nəqliyyat zənciri formalaşıb. Aktau ilə yanaşı, həmin limandan daşınan beynəlxalq yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Limanına, oradan isə Gürcüstan, Türkiyə və Avropa ölkələrinə göndərilir. Son 2 ildə Ələt-Kurık-Ələt istiqamətində yükdaşımaların intensivləşməsi də bunu təsdiqləyir**



### Özbəkistanın təşəbbüskarlığı

Qazaxıstan Orta Dəhlizin imkanlarının artırılmasında Azərbaycanla sıx əməkdaşlığı artırmaq və dəniz limanlarında böyük bir iqtisadi sənaye landşaftı yaratmaq niyyətindədir. Oljas Bektenovun fikrincə, Aktau limanında iki ölkənin birgə səyi ilə azad iqtisadi zonanın yaradılması üçün potensial investorların cəlb edilməsi istiqamətində işlər görülür. Bu model Aktau-Xəzər-Bakı Beynəlxalq Dəniz Limanını birləşdirməklə böyük bir azad logistika zonasını təmin edəcək. Həmçinin, hər iki ölkə digər nəqliyyat qovşaqlarını da birləşdirməklə Orta Dəhlizdə ortaq maraqları da möhkəmləndirir. 2024-cü ilin mart ayında Qazaxıstan Prezidenti Kasım-Comard Tokayevin Azərbaycana dövlət səfəri zamanı Siandan Bakıya gələn konteyner qatarının birgə qarşılanma mərasimi keçirilib və bu, Çin-Qazaxıstan-Azərbaycan nəqliyyat ittifaqının faktiki nümayişi kimi yadda qalıb.

Çindən başlayaraq Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçməklə Asiyanı Avropa ilə birləşdirən və ticarət əlaqələri üçün mühüm arteriyaya çevrilən Orta Dəhlizə digər ölkələrin də marağı artmaqdadır. Özbəkistan hökuməti də özünün dəmir yolu infrastrukturlarının yenilənməsi, yeni tranzitlərin əlaqələndirilməsi istiqamətində səylə çalışmaqdadır.




### Zəngəzur koridoru Orta Dəhlizin ötürmə qabiliyyətini ildə 8-10 milyon ton artıracaq

Orta Dəhliz beynəlxalq maliyyə təşkilatları tərəfindən də dəstəklənir və Dünya Bankı, AYİB, İƏİT kimi maliyyə təşkilatları bu dəhlizin genişləndirilməsi layihələrinə maliyyə ayırmaq niyyətlərini bəyan edib.

Orta Dəhlzin növbəti dayanacağı Zəngəzur xətti olacaq ki, nəticədə Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsi tam təmin ediləcək. Zəngəzur dəhlizi Orta Dəhliz boyunca yeni nəqliyyat arteriyasının açılması baxımından xüsusi əhəmiyyətə malikdir və region ölkələrinin tranzit potensialının tam şəkildə reallaşdırılmasına xidmət edəcək. Hesablamalara görə, bu marşrut Orta Dəhlizin ötürmə qabiliyyətini ildə 8-10 milyon ton artıracaq. Zəngəzur dəhlizi həm də regiona davamlı sülh və təhlükəsizlik gətirəcək, ölkələr arasında ticarəti və əməkdaşlığı yaxşılaşdırmaqla etimad və sabitliyin yaranmasına kömək edəcək.

**Çindən başlayaraq Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçməklə Asiyanı Avropa ilə birləşdirən və ticarət əlaqələri üçün mühüm arteriyaya çevrilən Orta Dəhlizə digər ölkələrin də marağı artmaqdadır**

*ELBRUS CƏFƏRLİ*

# İpoteka Fondu daha çox kredit versə də...

## Bankların öz vəsaitləri hesabına ayırdığı kreditlərdə artım yoxdur

2024-cü ilin III rübündə Azərbaycanda ipoteka kreditləri üzrə standartlarda sərtləşmə davam edib. Mərkəzi Bankın (MB) “Kreditləşmə fəaliyyətinə dair sorğu” hesabatında bildirilir ki, sərtləşmə bankların daxili resurslar hesabına verilən ipoteka kreditləri üzrə olub. İpoteka Kredit və Zəmanət Fondu (İKZF) hesabına verilən ipoteka kredit standartlarında dəyişiklik müşahidə edilməsə də, daşınmaz əmlak bazarındakı dalğalanmalar, bankların kapital və likvidlik mövqeyi ilə bağlı vəziyyət kredit şərtlərinin sərtləşməsində rol oynayan əsas faktorlar hesab edilir. Eləcə də bankların kapital və likvidlik mövqeyi sərtləşdirici təsir göstərən faktorlar sırasında olub. Yəni, əvvəlki rüblə müqayisədə bankların likvidlik mövqeyi kredit bazarına təsir edib və şərtlər yumşalmayıb. Banklar növbəti rübdə, yəni 2024-cü ilin son aylarında da kredit standartlarında dəyişiklik olmayacağını gözləyir. Bu, həm İKZF-nin hesabına verilən kreditlər, həm də daxili ipoteka kreditlərində gözlənilir.

### Tələb daha böyükdür, kredit isə azdır

Sorğuya əsasən, III rübdə ölkədə ipoteka kreditlərinə tələb azalıb. Tələbdəki azalmanın əsas hərəkətverici faktoru daxili ipoteka kreditləri ilə bağlıdır. İpoteka Fondu öz resursları hesabına kreditləşməni normal məbləğlərdə təmin etsə də, banklar öz vəsaitləri hesabına kredit ayrılmasında xəsislik edib. Xatırladaq ki, bu ilin yanvar-oktyabr aylarında İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 383,1 milyon manat kredit verilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7,9 faiz  çoxdur. Hesabat dövründə fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 4,4 faiz artaraq 378,8 milyon manat olub. Ancaq, bankların daxili resurslarında artım baş verməyib.

Qeyd edək ki, ölkəmizdə ipoteka kreditlərinin ümumi illik həcmi təxminən 3,2 milyard manat təşkil edir. Bu məbləğ müəyyən qədər böyük olsa da, qaneedici hesab olunmur. Çünki ölkədə mənzil bazarının ehtiyaclarını nəzərə aldıqda ipotekalaşma ümumi tələbin 30-40 faizini belə ödəmir. İpoteka kreditlərinə tələbin azalması şərtlərin çətinliyi ilə yanaşı, ipoteka mexanizmindəki əlçatanlığın səmərəli olmaması ilə bağlıdır. Kreditlərin bütün sosial qruplara şamil olunmaması, yaş amili və digər məhdudiyyətlər kreditlərə çıxışın qarşısını alır. İpoteka götürənlərin sayının azalmasına bir səbəb də insanların istehlak xərclərinin artması müqabilində gəlirlərinin azalmasıdır. Bu amil daha çox rayonlarda nəzərə çarpır.



### İpoteka kreditlərinin 90 faizindən çoxu paytaxtda cəmləşir

**Ölkəmizdə ipoteka kreditlərinin ümumi illik həcmi təxminən 3,2 milyard manat təşkil edir. Bu məbləğ msüəyyən qədər böyük olsa da, qaneedici hesab olunmur. Çünki ölkədə mənzil bazarının ehtiyaclarını nəzərə aldıqda ipotekalaşma ümumi tələbin 30-40 faizini belə ödəmir**

Qiymətləndirmələrə əsasən, ipoteka kreditlərinin 90 faizindən çoxu, yəni 3 milyard manatı Bakının payına düşür. Sumqayıt və Gəncə şəhərlərini çıxsaq, rayonlarda ipotekaya çıxış, demək olar ki, yox dərəcəsindədir. Belə ki, ipoteka kreditlərinin 5,2 faizi Sumqayıtın, 2,1 faizi Gəncənin payına düşür. Yerdə qalan 2,2 faiz nisbətində kreditlər respublikamızın digər rayonlarının payına düşür ki, bu da maliyyə məbləği baxımından 72,9 milyon manat deməkdir. Ölkə üzrə ümumilikdə 3,3 milyard manat həcmində ipoteka portfelinin cəmi 72 milyon manatının rayonlarda cəmləşməsi bölgələrdə ipoteka sisteminin zəif işləməsini göstərir.

İpoteka kreditlərinin əsas etibarilə paytaxtda cəmləşməsinin başlıca səbəblərindən biri burada maaşların məbləğinin daha yüksək olmasıdır. Bölgələrdə yaşayan insanların əməkhaqqı ilə paytaxtda çalışanların əməkhaqqı arasındakı fərqlə bağlıdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin aprel ayına qədər olan dövrdə Bakı şəhərində çalışan işçilərin orta aylıq nominal əməkhaqqı təxminən 1243,7 manat təşkil edib. Paytaxtın rayonları arasında da maaş fərqləri mövcuddur və ən yüksək əməkhaqqı Pirallahı və Səbail rayonundadır, təxminən 2100-2250 manata bərabərdir. Sonrakı yerlərdə Qaradağ, Xəzər, Xətai, Nəsimi, Nizami və Nərimanov rayonlarıdır.

**Paytaxtın rayonları arasında da maaş fərqləri mövcuddur və ən yüksək əməkhaqqı Pirallahı və Səbail rayonundadır, təxminən 2100-2250 manata bərabərdir. Sonrakı yerlərdə Qaradağ, Xəzər, Xətai, Nəsimi, Nizami və Nərimanov rayonlarıdır**

### İpotekaya əlçatanlığın təmin edilməsi məqsədilə...

Bütün bunlar bir daha fondun kredit coğrafiyasının paytaxtdan regionlara yönləndirilməsi və sosial kateqoriyaların durumu nəzərə alınmaqla, ipotekanın şərtlərinin regionlar üzrə yumşaldılması zərurətlərini də aktuallaşdırır. Qeyd edək ki, bölgələrdə yaşayan müxtəlif sosial kateqoriyaların ipotekaya əlçatanlığının təmin edilməsi uzun müddətdir ki, müzakirə olunur. Bununla bağlı “İpoteka haqqında” qanuna yeni dəyişikliklər layihəsi də hazırlanıb. Dəyişikliklər əhalinin mənzilə olan tələbatını ödəmək, yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə ipoteka kreditlərinə çıxışın asanlaşdırılmasını nəzərdə tutur və müxtəlif sosial kateqoriyaların kredit alması imkanlarının sadələşdirilməsi təklif olunur.

İpoteka və Kredit Zəmanət Fondunun mövcud maliyyə portfeli imkan verir ki, bölgələrlə paytaxt arasında fərqli ipoteka şərtləri tətbiq olunsun. Bunun üçün beynəlxalq ipoteka bazarlarındakı vəziyyəti və təcrübənin öyrənilməsinə də zərurət vardır. Nəticədə bu təkliflərin öz həllini tapması bu kreditlərdən faydalana biləcək şəxslərin dairəsinin genişlənməsinə və yeni ipoteka məhsullarının tətbiqinə səbəb ola bilər.

*E.Cəfərli*

**Bölgələrdə yaşayan müxtəlif sosial kateqoriyaların ipotekaya əlçatanlığının təmin edilməsi uzun müddətdir ki, müzakirə olunur. Bununla bağlı “İpoteka haqqında” qanuna yeni dəyişikliklər layihəsi də hazırlanıb. Dəyişikliklər əhalinin mənzilə olan tələbatını ödəmək, yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə ipoteka kreditlərinə çıxışın asanlaşdırılmasını nəzərdə tutur və müxtəlif sosial kateqoriyaların kredit alması imkanlarının sadələşdirilməsi təklif olunur**

# Sahibkarlar üçün sağlam mühit

## Ciddi islahatlar aparılır...

Regionlarımızın inkişafı üçün ciddi islahatlar həyata keçirilir. Bu, milli iqtisadiyyatın sürətli inkişafı və yüksək artım templərinin təmin edilməsinə xidmət edir. Qeyd olunan fonda sənaye və kənd təsərrüfatının inkişafı, investisiya mühitinin və ixrac potensialının yaxşılaşdırılmasına xüsusi diqqət olunur. Xüsusilə Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işləri, yeni infrastrukturun yaradılması istiqamətində görülən işlər burada sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar yaradıb.

### Dövlət-sahibkar birliyi...

Düşmənin 30 il ərzində xarabalığa çevirdiyi, daşı daş üstdə qoymadığı torpaqlarımızda həyat yenidən canlanır, insanların, xüsusilə sahibkarların qurub-yaratmaq həvəsi artır. Qarabağ və Şərqi Zəngəzurun bərpasında, sosial-iqtisadi həyatın canlanmasında sahibkarlar mühüm rol oynayırlar. Bu da təsadüfi deyil. Çünki dövlətimiz burada iş görmək istəyən bütün yerli və xarici biznes nümayəndələri üçün hərtərəfli şərait yaradıb.

İşğaldan azad olunmuş ərazilərin bərpası, bu torpaqlarda həyatın əvvəlki məcrasına qaytarılması Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələdir. Prezident İlham Əliyev azad olunmuş ərazilərin iqtisadi reinteqrasiyasına böyük diqqət yetirir. Azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri iqtisadi və sosial inkişaf üçün yeni imkanlar açıb. Regionda biznesin inkişafı üçün yaradılan şərait, dövlət-sahibkar işbirliyi müstəvisində yeni layihələr reallığa çevrilib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**



### Ötən il 3 milyard manat ayrılıb

Təsadüfi deyil ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda əsas investor Azərbaycan dövlətidir. Ötən müddətdə bütün mənbələr hesabına Qarabağda bərpa işlərinə 19,4 milyard manat vəsait xərclənib. 2025-ci ilin dövlət büdcəsindən isə 4 milyard manat ayrılıb. Bununla belə, dövlətin yaratdığı əlverişli biznes mühiti, bir sıra vergi güzəştləri, eləcə də infrastrukturun bərpası istiqamətində görülən işlər özəl sektoru da bu ərazilərdə iş görməyə sövq edir.

### Statistik göstəricilər...

Dövlət Statistika Komitəsinin məlumatına görə, mikrosahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonu üzrə 3 min 875, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 851 olub. Bu da ölkə üzrə ümumi sahibkarlıq subyektlərinin müvafiq olaraq 2,2 faizi və 0,5 faizi deməkdir.

İndiyədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə 240 kiçik, 28 orta və 11 iri sahibkarlıq subyekti qeydə alınıb. Ötən ayın əvvəlinə Qarabağ iqtisadi rayonunda 87 min 510, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5 min 876 fərdi sahibkar fəaliyyət göstərib.

**İndiyədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə 240 kiçik, 28 orta və 11 iri sahibkarlıq subyekti qeydə alınıb. Ötən ayın əvvəlinə Qarabağ iqtisadi rayonunda 87 min 510, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5 min 876 fərdi sahibkar fəaliyyət göstərib**

### 150 min iş yeri açılacaq

Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağı gözlənilir. Belə ki, Ağdam Sənaye Parkında iş yerlərinin gözlənilən sayı 5 min, kənd təsərrüfatı sektorunda 15-17 min, dağ-mədən sənayesində 1,5- 2 min, turizm sahəsində 1,5- 2 min, KOS sektorunda isə 10-11,5 mindir.

Dövlət proqramlarının icrası nəticəsində azad edilmiş bölgələrimizin siması bütünlükdə dəyişib. Bu gün sahibkarlığın inkişafına dövlət dəstəyi göstərilməsi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi prosesi dövlət büdcəsinə əlavə yük yaratmadan həyata keçirilməsi üçün kreditləşdirmədən geri qaytarılan vəsaitlər hesabına təmin edilir. Davamlı olaraq həyata keçirilən kompleks islahatların tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirib. Həyata keçirilən genişmiqyaslı dəstək tədbirlərinin nəticəsidir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti genişlənir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır.

Beləliklə, hər bir sahə üzrə fasiləsiz iş gedir, yeni sənaye müəssisələri yaradılır, kənd təsərrüfatına geniş torpaq sahələri cəlb edilir, infrastruktur qurulur, sosial obyektlər tikilir. Eyni zamanda sahibkarlıq fəaliyyəti dəstəklənir. Bununla yanaşı məcburi köçkünlərin öz doğma torpaqlarına köçü təmin edilir. Görülən işlər Qarabağın tezliklə Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevriləcəyindən xəbər verir.

*Yeganə BAYRAMOVA*

# 24 ildən sonra...

## Bəşər Əsədin hakimiyyəti sona çatdı

### Suriyada vəziyyət dramatikləşir

2000-ci ildən Suriyanın prezidenti olan Bəşər Əsəd dekabrın 8-də silahlı müxalifətə uduzaraq ölkəsini tərk etdi. Bəşər Əsədin paytaxt Dəməşqi tərk etməsi ilə bağlı xəbəri ilk olaraq Suriya Ordusundakı mənbələrə istinadən "Reuters" agentliyi yaydı - onun Dəməşqdən naməlum istiqamətə uçduğu bildirildi. Ardından isə Suriya ordusunun komandanlığı Suriya prezidenti Bəşər Əsədin 24 illik hakimiyyətinin sona çatdığını elan edib. Xatırladaq ki, ölkəsini tərk etməmişdən öncə Bəşər Əsəd kömək üçün Amerika administrasiyası və yeni seçilmiş ABŞ prezidenti Trampla əlaqə saxlamağa çalışmışdı.

### Bəşər Əsəd Rusiyaya sığındı...

Keçmiş prezidentin sonradan Rusiyaya sığındığı məlum olub. Kremlin mətbuat katibi Dmitri Peskov deyib ki, Bəşər Əsəd və ailəsinə sığınacaq verilməsi qərarını Rusiya Prezidenti Vladimir Putin verib. Kremlin sözçüsü Əsəd və ailəsinin harada olması barədə təfərrüatların açıqlanmadığını söyləyib. Peskov onu da bildirib ki, Putinin rəsmi qrafikində Əsədlə görüş yoxdur. O, Putinin Suriyanın keçmiş prezidenti Bəşər Əsədi sonuncu dəfə nə vaxt görüb onunla əlaqə saxladığını deməyib.

Bəşər Əsədin ölkədən qaçması isə Suriyada müharibənin sona çatdığını göstərir - belə olan halda, Rusiyanın Suriyadakı hərbi bazalarının taleyi də maraqlıdır. Peskov bu haqda danışmağın hələ tez olduğunu bildirib. O deyib ki, Rusiya bazalarının Xmeymim və Tartusda saxlanılması barədə danışmaq tezdir: "Bu, Suriyaya rəhbərlik edəcək şəxslərlə müzakirə mövzusudur". Kremlin sözçüsü onu da əlavə edib ki, Rusiya Suriyadakı hərbçilərinin təhlükəsizliyini təmin edə biləcək şəxslərlə təmaslar qurur: "Suriyada vəziyyət sabitləşəndən sonra Rusiya yeni hakimiyyət orqanları ilə öz ordusunun ölkədə qalmasını müzakirə etməyi planlaşdırır".

### Mənbic azad olundu...

Bu arada Suriya Milli Ordusu (SNA) terror təşkilatı PKK/YPG-nin işğalı altında olan Mənbic rayonunu azad edərək, Fərat çayının qərbindəki ən böyük terror yuvasını təmizləyib. Türkiyə mətbuatının məlumatına görə, əməliyyat çərçivəsində SNA Mənbicin qərbindəki Ureyme qəsəbəsi və şimaldakı Um Dadat kəndini terrordan təmizləyib və rayonun ərazisinə şimal, qərb xətti üzrə daxil olub. Beləliklə, hərbi müxaliflər Fərat çayının qərbindəki ən böyük ərazini terrorçulardan azad ediblər. Xatırladaq ki, Mənbic illərdir terror təşkilatının işğalı altındadır. PKK/YPG 2016-cı ilin may-avqust ayları arasında başlatdığı hücum nəticəsində Mənbic rayonunu ələ keçirib. Hazırda rayon ərazisində mina və tələlərə qarşı axtarış - yoxlama işləri aparılır.





### Hakan Fidan: Türkiyə onların yanında olacaq

Türkiyənin xarici işlər naziri Hakan Fidan Ankarada keçirilən 15-ci Səfirlər Konfransının açılışındakı çıxışında Suriyada baş verənlərə toxunub. "Milliyyət" xəbər verir ki, Nazir Suriyada baş verən hadisələrin ümid işığı yaratdığını bildirib. O qeyd edib ki, Türkiyə beynəlxalq aktorların, xüsusən də BMT-nin Suriya xalqı ilə birgə olmasını və birləşdirici hökumətin qurulmasına dəstək verməsini gözləyir: "Biz hər zaman deyirik ki, Suriyada problemlərin daimi həlli, sülh və sabitlik yalnız milli barışıq yolu ilə əldə edilə bilər. Lakin bütün səylərimizə və ona verilən imkanlara baxmayaraq, rejim öz xalqı ilə barışmağa çalışmadı".

H.Fidan bildirib ki, Suriyada yeni dövr başlayıb. "İndi diqqəti gələcəyə yönəltmək lazımdır. Gələcəkdə biz müxtəlif etnik və dini qrupların sülh içində və əhatəli idarəetmə anlayışı ilə yaşadığı Suriyanın qurulmasını arzulayırıq. Qonşuları ilə yaxşı münasibət quran, bölgəsinə sülh və sabitlik gətirəcək yeni Suriya görmək istəyirik. Bunun üçün lazımi dəstəyi verməyə hazırıq. Bu məqsədlə biz bütün tərəflərlə, xüsusilə regional aktorlarla lazımi dialoqu və koordinasiyanı davam etdiririk", - deyən Fidan vurğulayıb ki, Türkiyə bundan sonra da Suriyanın ərazi bütövlüyünü, siyasi birliyini, rifahını, təhlükəsizliyini və sabitliyini təmin etmək üçün üzərinə düşən bütün öhdəlikləri üzərinə götürməyə davam edəcək: "Biz suriyalıların təhlükəsiz və könüllü şəkildə öz yurdlarına qayıtması və ölkənin yenidən qurulması üçün işimizi davam etdirəcəyik. Çətin günlərdə suriyalı qardaşlarına kömək edən Türkiyə Dəməşqdə açılacaq yeni səhifədə də onların yanında olacaq. Suriya xalqının bu qızıl fürsətdən yaxşı istifadə edəcəyinə inanırıq".

### Sülh və barışıq üçün...

Qeyd edək ki, 24 ildən sonra Suriyada Əsədin hakimiyyətdən getməsi bütün dünyanın reaksiyasına səbəb olub. BMT-nin Suriyadakı nümayəndəsi Qeyr Pedersen üsyançıların hakimiyyəti ələ keçirməsini təxminən 14 ildir davam edən vətəndaş müharibəsi ilə üzləşmiş ölkə üçün "dönüş nöqtəsi" kimi qiymətləndirib: "Bu gün biz ehtiyatla və ümidlə bütün suriyalılar üçün sülh, barışıq, ləyaqət və inklüzivliyin yeni fəslinin açılmasını gözləyirik".

Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen isə bildirib ki, Aİ bütün azlıqların maraqlarını qoruyacaq Suriya dövlətinin" yenidən qurulmasına kömək edəcək. Aİ-nin xarici siyasət idarəsinin yeni rəhbəri Kaya Kallas isə Əsədin devrilməsini "müsbət və çoxdan gözlənilən inkişaf" kimi qiymətləndirib.

### ABŞ ədalətin bərpa olunduğunu deyir...

Çin Xarici İşlər Nazirliyi bildirib ki, Pekin Suriyadakı vəziyyətin inkişafını yaxından izləyir, vəziyyətin mümkün qədər tez sabitləşəcəyinə ümid edir. ABŞ Prezidenti Co Bayden isə Əsəd rejiminin devrilməsinin suriyalılara tarixi fürsət verən ədalətli bir hal olduğunu söyləyib: "Nəhayət, Əsəd rejimi yıxıldı. Bu rejim yüz minlərlə günahsız insanı əzdi, işgəncə etdi və sözün əsl mənasında öldürdü. Rejimin yıxılması ədalətin bərqərar olmasıdır. Bu, əziyyət çəkmiş Suriya xalqının öz ölkələri üçün daha yaxşı bir gələcək qurmaq üçün tarixi bir fürsətdir".

İran Xarici İşlər Nazirliyi isə Suriya ilə dostluq" əlaqələrinin davam edəcəyini gözlədiklərini bildirib. Vurğulanıb ki, Tehran öz qərarlarını və yanaşmalarını Dəməşqdəki nüfuzlu aktorların davranışlarına uyğun olaraq qəbul edəcək.

### Böyük Britaniyadan dinc və sabit Suriya çağırışı...

Almaniya kansleri Olaf Şolts deyib ki, Berlin müharibədən zərər çəkmiş ölkəyə sülhü qaytarmaq üçün siyasi həllə töhfə verməyə hazırdır.

Birləşmiş Ərəb Əmirlikləri prezidentinin müşaviri Ənvər Qarqaş Bəhreyndə keçirilən Manama Dialoqunda suriyalıları xaosa düşməmək üçün əməkdaşlığa çağırıb.

Böyük Britaniyanın Baş naziri Keir Starmer isə mülki vətəndaşların və yerli azlıqların təhlükəsizliyinin təmini baxımından dinc və sabit Suriya çağırışı səsləndirib. Bazar günü Birləşmiş Ərəb Əmirliklərinə səfər edən baş nazir regional müttəfiqlərlə görüşdüyünü və Əsədin hakimiyyətdən kənarlaşdırılmasını real fürsət kimi qiymətləndirib.

### Taliban da təbrik etdi...

Əfqanıstanın Taliban rəhbərliyi Suriya xalqını təbrik edərək, keçidin "müstəqil və xidmət yönümlü İslam hökumətinə və xarici müdaxilələrdən azad" Suriyaya" gətirib çıxaracağına ümid etdiklərini bildiriblər.

İraq hökumətinin sözçüsü Basim Alavadi ölkəsinin bütün suriyalıların azad iradəsinə hörmət olunmasını tələb etdiyini, Suriyanın təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin son dərəcə vacib olduğunu deyib.

**SADİQ**

# Fon der Leyenə qarşı iddialar rəsmiləşir...

## AK rəhbəri 35 milyard avroluq korrupsiyada ittiham olunur

Qlobal COVİD-19 pandemiyası dövründə "vaksin korrupsiyası"na yol verdiyi söylənilən Avropa Komissiyasının prezidenti Ursula fon der Leyenə qarşı ittihamlar get-gedə ciddiləşir. Aİ rəhbərinin korrupsiya əməli törətməsi ilə bağlı min fiziki və hüquqi şəxs tərəfindən məhkəmə iddiası qaldırılıb. İddiaçılar onun 35 milyard avrodan çox dəyərində sınaqdan keçirilməmiş COVID-19 vaksinlərinin alınmasında korrupsiyaya yol verdiyini bildirirlər. İddianın təşəbbüskarı, belçikalı lobbiçi Frederik Baldandır. Bundan başqa, Polşa və Macarıstan hökumətləri, ictimai təşkilatlar (məsələn, həkimlərin və stüardessaların

### Polşa və Macarıstan hökumətləri, ictimai təşkilatlar və fiziki şəxslər iddiaçıdırlar

peşəkar birlikləri) və fiziki şəxslər də iddiaçılar arasında yer alır. Məhkəmə prosesində Avropa hakimiyyətinin Avropa bazarına təhlükəsiz və effektiv hesab edilən, lakin əslində heç biri olmayan məhsulu çıxartmaqla ictimaiyyəti aldatdığının aydın olacağı bildirilir.

### Belçika prokurorluğu məlumat yaymışdı...

Xatırladaq ki, bir müddət öncə Avropa İttifaqı Prokurorluğunun (EPPO) Belçika prokurorluğunun Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyenə qarşı Amerikanın Pfizer şirkətindən koronavirus peyvəndi alması ilə bağlı cinayət işini ələ keçirdiyi ilə bağlı xəbər yayılmışdı. Məşhur nəşrlərdən birinin yaydığı məlumatda Belçikanın hüquq-mühafizə orqanlarının əməkdaşına istinadən deyilirdi ki, 2023-cü ilin aprelində Belçika konsaltinq şirkətlərindən birinin əməkdaşı Frederik Baldan (rəsmi iddianı qaldıran şəxs) Lyej şəhərinin birinci instansiya məhkəməsində fon der Leyenə qarşı iddia qaldırmışdı - iddiaçı qeyd edirdi ki, Avropa Komissiyasının rəhbərinin hərəkətləri Belçikanın maliyyə maraqlarına zərbə vurub və "ictimai etimadı" sarsıdıb. Sonradan isə bu işlə bağlı heç bir ittiham irəli sürülməmişdi.



### 3 il öncə "The New York Times" yazmışdı...

Fon der Leyenin "Pfizer" şirkəti ilə bağladığı "müqaviləyə gəldikdə" isə, bu haqda xəbəri hələ 2021-ci ilin payızında Amerika nəşri "The New York Times" yazmışdı. Nəşr Avropa Komissiyasının rəhbəri ilə Amerikanın Pfizer şirkətinin baş direktoru Albert Bourla yazışmalarını üzə çıxarmışdı - bildirilirdi ki, bu yazışma peyvənd alınması ilə bağlı tarixin ən bahalı müqaviləsi bağlanmazdan əvvəl həyata keçirilib. Qeyd olunmuşdu ki, müqavilənin dəyəri 35 milyard avroya çata bilər. AK rəhbəri isə danışıqlar prosesinə "birbaşa təsir" etməkdə şübhəli bilinirdi - çünki alınmış peyvəndlərin sayı ehtiyacları xeyli üstələyirdi. Aİ-nin peyvənd ehtiyacları 1,8 milyard doza təşkil etdiyi halda, bu qədər "geniş müqavilə"nin imzalanmasının məntiqi açıqlaması yox idi. 2023-cü ilin yanvarında isə qəzet fon der Leyeni "Pfizer" rəhbəri ilə yazışmalarını dərc etməkdən imtina etdiyinə görə məhkəməyə vermişdi. Daha sonra AK rəhbərinin müavini Vera Jourova məsələni fərqli şəkildə "izah etdi": mesajlar "qısamüddətli, efemer xarakterinə" görə silinə bilərmiş.

Qeyd edək ki, həmin dövrdə Baldanın rəsmiləşməmiş iddiasına qoşulanlar da az olmamışdı. O dövrdə də Macarıstan və Polşa hökumətləri fon der Leyendən "hesab soran"ların siyahısına əlavə edilmişdilər - sadəcə, avropapərəst Donald Tuskun Polşanın Baş naziri olması ilə rəsmi Varşava şikayətini geri götürmək üçün yeni proses başlatdı.

**Özünü "demokratik təsisat" adlandıran təşkilatların fəaliyyət mexanizminin bəzi gizlinləri artıq üzə çıxır. Özlərini bütövlükdə qlobal proseslərin "yönvericisi" kimi görən, "nizamlşayıcı" statusu daşıdığını düşünən bu "təsisatlar"ın təmsilçiləri və rəhbərləri şəffaflıq, ədalət və düzgünlük "ideyası" haqda danışsalar da, real həyatda tamam əks əməli fəaliyyətləri ilə yadda qalırlar**

### Avropada korrupsiya "əks -sədası"...

Qeydə alınan bu ittiham isə Avropa İttifaqı təsisatlarına qarşı birinci iddia deyil. Ümumiyyətlə, özünü "demokratik təsisat" adlandıran təşkilatların fəaliyyət mexanizminin bəzi gizlinləri artıq üzə çıxır. Özlərini bütövlükdə qlobal proseslərin "yönvericisi" kimi görən, "nizamlayıcı" statusu daşıdığını düşünən bu "təsisatlar"ın təmsilçiləri və rəhbərləri şəffaflıq, ədalət və düzgünlük "ideyası" haqda danışsalar da, real həyatda tamam əks əməli fəaliyyətləri ilə yadda qalırlar. Məsələn, bir müddət öncə haqqında korrupsiya və rüşvət qalmaqalı baş verən Avropa Parlamentinin rəsmisi Eva Kaili ilə bağlı prsoes, eləcə də, AP-nin digər üzvlərinin erməni milyarder Kaspar Karapetyan ilə qaranlıq əlaqələrinin üzə çıxması bu qurum daxilində "korrupsiya böhranı"nın gündən-günə şiddətləndiyini göstərir. Bu mənada Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyenə qarşı cinayət işinin başlanması da təəccüblü deyil.

### Erməni lobbisinə "sığınan"...

Fon der Leyenin korrupsiya əməlləri isə tək bu faktla yekunlaşmır - onun Karapetyan ilə gizli sövdələşmələri haqda bir sıra xarici media orqanları məlumatlar yayıblar. Bildirilib ki, Qərb təsisatı məhz Ermənistan üzərindən Karapetyan vasitəsilə çirkli pulların yuyulması əməliyyatını həyata keçirir. Hətta Ermənistan üzərindən məhz avropalı siyasətçinin aktiv iştirakı ilə köhnə silahların "utilizasiyası"nın həyata keçirildiyi də bildirilirdi. Bir sıra siyasətçilərin fikrincə, fon der Leyenin "erməni sevgisi"nin də kökündə məhz bu amil dayanır.

Eyni zamanda, Avropa Parlamentinə son seçkilərdə yenidən sədr seçilməsi üçün erməni lobbisi ilə fəal iş aparan fon der Leyenin bu zaman da bəzi gizlin əlaqələrə girməsi ilə bağlı fikirlər səsləndirilib. Vurğulanıb ki, fon der Leyen 2024-cü ilin iyunun 6-9-da keçirilən seçkilərdə erməni lobbisinin "gücünə arxalanıb". Uzun illərdir isə, Avropa strukturlarını "maliyyələşdirən", onları maddi şəkildə stimullaşdıran Kaspar Karapetyanın əli ilə erməni lobbisinin oyuncağı olan deputatların səsini alan fon der Leyen bunun üçün Ermənistanla təmsil etdiyi qurum arasında "münasibətləri" istiləşdirir...

**P.İSMAYILOV**

# Tbilisi küçələrində Qərb tamaşası

## Gürcüstanda baş tutmayan inqilab ssenarisi

Qonşu Gürcüstanda oktyabrın 26 - da keçirilən parlament seçkilərindən sonra başlayan və Baş nazir İrakli Kobaxidzenin Gürcüstanın Avropa İttifaqına inteqrasiyası ilə bağlı danışıqların 2028-ci ilə qədər dayandırılması barədə noyabrın 28-də verdiyi bəyanatdan sonra daha geniş vüsət alan etirazlar artıq səngimək üzrədir. Başda prezident Salome Zurabişvili olmaqla birləşmiş müxalifətin inqilab yolu ilə hakimiyyəti devirmək ssenarisi baş tutmayıb. Artıq permanent aksiyaların keçirildiyi Rustaveli prospektində, parlamentin binası önündə və yaxınlıqdakı digər küçələrdə nisbi sakitlik hökm sürür.

Ancaq qonşu ölkədə siyasi qarşıdurma səhifəsinin tam şəkildə bağlandığı fikrini ifadə etmək hələ tezdir. Qarşıdan yeni qayda ilə keçiriləcək prezident seçkiləri gəlir. Ehtimal olunur ki, prezident seçkilərindən sonra etirazların yeni dalğası başlaya bilər.

### Qərb diplomatlarını və Gürcüstan müxalifətini birləşdirən nədir?

Elan olunan yekun nəticələrə əsasən, hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası on birinci çağırış Gürcüstan parlamentində 150 mandatdan 89-nu qazanıb. MSK-nın yekun protokoluna görə, qalan 61 mandatdan 19-na "Dəyişiklik üçün Koalisiya", 16-sına "Birlik - Milli Hərəkat", 14-nə "Güclü Gürcüstan", 12-nə isə "Qaxariya Gürcüstan üçün" partiyaları sahib olublar. Bununla da, qonşu və dost ölkədə seçkilər baş tutmuş hesab olunur. Artıq seçicilərin təxminən 54 faizinin dəstəyini qazanan "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası parlamentin bir neçə iclasını keçirməyə və hökuməti formalaşdırmağa nail olub.



Bununla belə, S.Zurabişvili və müxalifət partiyaları, eləcə də QHT-lər seçkilərin nəticələrini tanımadıqlarını bildirirlər. Onlar hökumətin istefasını, təkrar seçkilər keçirilməsini istəyirlər. Eyni zamanda, birləşmiş müxalifət İ.Kobaxidzenin məlum bəyanatını bəhanə gətirməklə Gürcüstan hakimiyyətini avrointeqrasiyadan yayınmaqda günahlandırır.

Lakin bunlar yalnız zahiri məqamlardır. Gürcüstan hadisələrini bir teatr tamaşasına bənzətmək mümkündür. Bu tamaşada prezident, müxalifət partiyalarının və QHT-lərin təmsilçiləri yalnız rol alan aktyorlardırlar. Hadisələri təhlil etdikdə və onların mahiyyətinə vardıqda aydın şəkildə görünür ki, dirijor, ssenari müəllifi arxa plandadır və bu, kollektiv Qərbdir. Seçkilər ərəfəsində və ondan sonra Almaniyanın, Fransanın, ABŞ-ın, Avropa İttifaqının səfirlərindən Gürcüstan hakimiyyətinin ünvanına sərt tənqidlər eşidilir. Yerli mətbuat yazır ki, Qərbdən maliyyə asılılığı olan müxalifət və prezident S.Zurabişvili tələbə və gəncləri küçələrə çıxartmaqla əslində Gürcüstan cəmiyyətini vətəndaş qarşıdurmasına sürükləyirlər.

### "Müharibə partiyası" iş başında

Bütün bunların mahiyyətində Qərbin Cənubi Qafqazda öz maraqlarını təmin etmək məqsədi dayanır. Burada Rusiyanı sıxışdırmaq və öz mövcudluğunu təmin etmək istəyən kollektiv Qərb bunu region dövlətləri, o cümlədən də Gürcüstan üzərindən reallaşdırmaq istəyir. Qərb illər ərzində vətəndaş cəmiyyəti təsisatlarına böyük həcmlərdə maliyyə vəsaiti yönəltməklə Gürcüstanda özünə dayaqlar qurmağa nail olub. Həssas dönəmlərdə məhz Qərbdən maliyyə asılılığı olan müxalifət partiyalarının və QHT-lərin təmsilçiləri hakimiyyətə qarşı mübarizənin önündə olurlar. İndiki məqamda Gürcüstan cəmiyyətində "müharibə partiyası" barədə çox danışılır. "Müharibə partiyası" dedikdə Gürcüstana qonşu Rusiya ilə ikinci cəbhə açmağa çağırış edən Qərb diplomatları və onların bəyanatlarını təkrarlayan müxalifət təmsilçiləri başa düşülür.

Gürcüstan 2008-ci ilin yayında Rusiya ilə müharibəyə cəlb olundu. Yenə də katalizator qismində Qərb çıxış edirdi. Qısamüddətli döyüşlərdə ərazi itkilərinə məruz qalan Gürcüstan müharibənin acılarını hələ də unutmayıb. "Müharibə partiyası" yenidən fəallaşıb və iş başındadır. Ancaq Gürcüstan iqtidarı və cəmiyyəti anlayır ki, Rusiya ilə ikinci müharibəyə başlamaq yolverilməzdir. Çox doğru olaraq vurğulanır ki, Gürcüstanın müharibəyə təhrik olunması ölkənin məhvinə səbəb olacaq.



**Zurabişvilinin Parisə qanunsuz səfərinin əsas məqsədi Trampla görüşüb ondan güclü dəstək almaq idi. Bəli, görüş baş tutub. Ancaq yayılan videokadrlar müxalifət cəbhəsi üçün heç bir ümid oyatmır, əksinə, dərin məyusluq yaradır. Belə ki, xanım prezidentin canfəşanlıqla əl uzatması fonunda D.Trampın etinasızlığı kəskin təzad yaradır**

### İqtidarın və müxalifətin Trampdan gözləntiləri

Bu arada Gürcüstan iqtidarının və müxalifətinin ABŞ-nin yeni seçilmiş prezidenti D.Trampdan gözləntiləri də diqqətdən yayınmır. Prezident S.Zurabişvilinin dekabrın 7-də hökumətlə razılaşdırılmadan (Gürcüstan Konstitusiyasına əsasən prezidentin xarici ölkələrə səfərləri və bir sıra görüşləri hökumətlə razılaşdırılaraq həyata keçirilməlidir. Lakin S.Zurabişvili dəfələrlə hökumətlə razılaşmadan xarici ölkələrə səfər edib) Fransaya səfər etməsi, Ukrayna, Fransa və ABŞ prezidentləri ilə görüşləri birmənalı qarşılanmır. Xüsusilə də S.Zurabişvilinin Trampla görüşü (əgər buna görüş demək mümkündürsə - red.) diqqət çəkir. KİV-in yazdığına görə, Zurabişvilinin Parisə qanunsuz səfərinin əsas məqsədi Trampla görüşüb ondan güclü dəstək almaq idi. Bəli, görüş baş tutub. Ancaq yayılan videokadrlar müxalifət cəbhəsi üçün heç bir ümid oyatmır, əksinə, dərin məyusluq yaradır. Belə ki, xanım prezidentin canfəşanlıqla əl uzatması fonunda D.Trampın etinasızlığı kəskin təzad yaradır.

Hakimiyyət isə Ağ Evin yeni sahibi ilə əməkdaşlığa ümid bəslədiyini bildirib. "Biz ABŞ-nin yeni prezidentinin andiçmə mərsimini gözləyirik. Ümid edirik ki, 20 yanvardan sonra dünyada əhəmiyyətli dəyişikliklər baş verəcək, bizim regionumuzda da sabitlik yaranacaq və bu, ölkəmizə də öz müsbət təsirini göstərəcək", - deyə Baş nazir İ.Kobaxidze vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Paşinyan - Makron cütlüyünün yeni "Paris sərgüzəşti"

**Makronun "fitvasına" gedən Paşinyan Noterdamda "günah çıxarır"**

**Fransanın vəziyyəti daha kritikdir, Ermənistanın isə hələ də şansı var - sülhü imzalasa...**

### "Qapı ağzında" söhbətləşmədən "gözləntilər"...

Gələn ilin yanvarından etibarən Donald Trampın prezident kimi səlahiyyətlərinə başlaması ilə demək olar ki, dünyanın əksər nöqtələrində yeni siyasi münasibətlər sistemi meydana çıxacaq. Xüsusilə, son 4 ildə Avropada baş verənlərin "məcrası" dəyişəcək, yeni iqtisadi inteqrasiyaya start veriləcək. Bu yeni situasiyada yer almaq üçün isə çoxları can atır. "Andiçməyə" cəmisi bir ay qaldığı üçün hər kəs sonuncu "kartını" oyuna daxil edir...

### Paşinyan çıxış yolu axtarır...

Bir neçə gündür ki, Ermənistan mətbuatı baş nazir Nikol Paşinyanın Parisdə Fransa prezidenti Emmanuel Makron ilə birgə Donald Trampla "SÖHBƏTLƏŞməsindən" yazır. Fərqləndirməni o səbəbdən aktual hesab etdik ki, bu, görüş deyildi - hətta Ermənistan mətbuatı belə təsdiqləyir ki, bu, sadəcə ayaqüstü söhbətləşmə olub. Bu "ayaqüstü" və ya "qapıağzı" söhbətləşməni isə Ermənistanın hökumət başçısı tələm-tələsik özünün sosial şəbəkə hesabında yayıb - məsələnin əsl mahiyyəti burada açılır...

Əsas olan bu "söhbətləşmədən" Paşinyan-Makron cütlüyünün gözləntiləridir. Təbi ki, bu "ittifaq" proseslərin gedişini görür və dəyərləndirir. Aydın şəkildə başa düşürlər ki, proses heç də onların istədiyi məcrada inkişaf etmir. Bayden administrasiyasının alətinə çevrilmiş hər iki dövlət başçısı prosesin gedişini dəyişə bilməsələr də, özlərinin "situasiyalarını" dəyişməyə çalışırlar...

**Almaniya hazırda Aİ-də və ümumən Avropa məkanında əsas söz sahibi və ABŞ-ın ən yaxın müttəfiqi kimi təqdim olunur. Rusiya ilə mümkün sülh danışıqlarını da Almaniya həyata keçirir. Hətta digər bölgələrlə bağlı kollektiv Qərbin "yeni səfiri" qismində Berlin çıxış edir. Bu isə Fransanın açıq şəkildə "prosesdən kənarda" qaldığını göstərir**

### Makron "öz ipini çəkdi" - uçurumun bir addımlığında...

Emmanuel Makronun isə ölkəsində düşdüyü durum yuxarı-aşağı bəllidir - prezident istefanın demək olar ki, bir addımlığındadır. Bu ilin büdcə qanunu qəbul edilməyəcəyi təqdirdə - çox güman ki, edilməyəcək çünki büdcənin qəbuluna qədər hələ yanvarda maliyyə idarəçiliyi ilə bağlı xüsusi qanun qəbul edəcək Fransa parlamentinin yeni ildən sonrakı ilk işi Makronun istefası məsələsini gündəmə gətirmək və buna nail olmaq olacaq. Təxminən II Dünya müharibəsindən sonra ilk dəfədir ki, ölkə bu cür maliyyə defoltu təhlükəsi yaşayır - Makronun səbəb olduğu situasiya dövlətin sonunu yaxınlaşdırır.

Makronun "kreslosu"nun laxlaması onun siyasi fəhminin minimal səviyyədə olması ilə də bağlıdır. ABŞ-dakı prezident seçkiləri öncəsi siyasi etikadan kənar olaraq demokratların namizədi Harrisin "seçiləcəyi" ilə bağlı "proqnozlar verən", siyasətini bu istiqamətdə quran Makron ən sonda Rusiya - Ukrayna müharibəsinə münasibətdə "öz ipini çəkdi". Baydenin "raket toru"na düşən Makron qlobal müharibəni daha da qızışdırmaq, daha aktiv fazaya daşımaq üçün bütün mümkün vasitələrə əl atdı - Ukraynaya raket və bu raketin Rusiyanın dərinliklərinə atmaq üçün icazə verdi. Hətta əsgər göndərəcəyini vəd etdi. Zaman göstərdi ki, Makron yenə də "divara" tuş gəlib.

Makron ölkəsinin Aİ-dəki dayaqlarını da zəiflətdi. Təsadüfi deyil ki, Avropa Komissiyasının tərkibi müəyyənləşən zaman yalnız Fransa ilə bağlı (Tyeri Bretonun adının siyahıdan çıxarılması) qalmaqal yaşandı. Fakt odur ki, Almaniya hazırda Aİ-də və ümumən Avropa məkanında əsas söz sahibi və ABŞ-ın ən yaxın müttəfiqi kimi təqdim olunur. Rusiya ilə mümkün sülh danışıqlarını da Almaniya həyata keçirir. Hətta digər bölgələrlə bağlı kollektiv Qərbin "yeni səfiri" qismində Berlin çıxış edir. Bu isə Fransanın açıq şəkildə "prosesdən kənarda" qaldığını göstərir.



### Parislə bərabər, İrəvan da çıxılmaz durumdadır...

O ki qaldı Paşinyana, özünə umac ova bilməyən Makron Ermənistan hökumət başçısını Parisə gətirtməklə ona "əriştə kəsmək" istəyir. Bayden administrasiyasının "yağlı vədlərinə" uyaraq Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya coğrafiyasında destruktivlik yaratmaq eşqinə düşən Paşinyan üçün sonuncu "xilas planı" axtarılır. Sülhü ləngitməklə mühüm ticari imkanların perspektivini yubadan Paşinyan səhvini başa düşüb - o, qarşıdakı dövrün "yeni iqtisadi - ticari münasibətlər nizamının yaranma mərhələsi" olduğunu artıq anlayıb. Ermənistan bu günə qədər Bayden administrasiyasının və Makronun şəxsi səyi nəticəsində yeni nizamda pozucu mövqedə "qərarlaşmışdı".

Bayden administrasiyasının Ukrayna "cəbhəsində" gözləntiləri də effekt vermədiyi üçün onun ətrafında formalaşan sözdə "dəstəkçi qrup" da seyrəlməyə başlayıb. G20-nin Rio de - Janeyro toplantısında Almaniyanın açıq dillə antimüharibə çağırışına sərt reaksiya verən Makron səhvini anlayıb və düşdüyü durumu Paşinyanın əli ilə düzəltməyə niyyətlənib - bu baxımdan, Fransa ilə yanaşı Ermənistan da "hədəfdədir".

Proseslər onu göstərir ki, artıq qlobal problemlər lokal maraqlar və ya aqressiv hikkələr kontekstində həll edilməyəcək - Trampın həm seçkiqabağı kampaniya vaxtı söylədikləri, həm də prezident seçkilərindən sonra gələcək fəaliyyəti ilə bağlı açıqlamalarından belə nəticəyə gəlmək olar ki, ABŞ yeni dövrdə qarşılıqlı iqtisadi-ticari maraqlara üstünlük verəcək. Beləliklə, "soyuq emosiya" öz yerini "isti tərəfdaşlığa" vermək üzrədir.

Paşinyan da erməni xislətinə uyğun olaraq, özünü prosesə pərçimləmək istəyir. Fürsət isə Trampla birgə eyni tədbirdə iştirak etmək idi - erməni baş nazir qapı ağzında da olsa ABŞ-ın yeni prezidenti ilə foto çəkdirərək özünü kompensasiya etməyə çalışır.

**Proseslər onu göstərir ki, artıq qlobal problemlər lokal maraqlar və ya aqressiv hikkələr kontekstində həll edilməyəcək - Trampın həm seçkiqabağı kampaniya vaxtı söylədikləri, həm də prezident seçkilərindən sonra gələcək fəaliyyəti ilə bağlı açıqlamalarından belə nəticəyə gəlmək olar ki, ABŞ yeni dövrdə qarşılıqlı iqtisadi-ticari maraqlara üstünlük verəcək. Beləliklə, "soyuq emosiya" öz yerini "isti tərəfdaşlığa" vermək üzrədir**

### "5 aprel" razılaşmasını "xilas etmək" üçün....

Vurğulandığı kimi, Makron həm də Aİ daxilində itirdiyi nüfuzunu bərpa etməyə çalışır. Burada da Ermənistan faktorundan vasitə və ya alət kimi istifadə olunur - siyasi mütəxəssislərin fikrincə, Paşinyanın Parisə dəvət olunmasının əsas səbəbi bu il imzalanan məşhur "5 aprel" razılaşmasının yarı yolda qalmaması üçündür. Bəlli olduğu kimi, Aİ - ABŞ - Ermənistan tərəfindən imzalanan sənədin Avropa üzrə "icraçısı" qeyri-rəsmi olaraq Fransadır. Başqa sözlə, bu sənədin gətirəcəyi "dividendlərə" Paris nəzarət etməli idi. Makron dəqiq hesablayıb ki, Tramp administrasiyası Baydendən qalan "mirasları" "qeyri-legitim" sayacaq və bu sənəd də ciddi qəbul olunmayacaq. Bu mənada "5 aprel" razılaşmasını analoji aqibət gözləyir. Hətta Qərb siyasətçiləri etiraf edirlər ki, Fransa hazırda Aİ daxilində reputasiyasını möhkəmləndirmək üçün hər şeyə hazırdır - çünki, bu, Makronun özünün şəxsi xilası üçün də yeganə yol sayılır. Ölkəsində impiçmentlə üz-üzə qalan, istefanın bir addımlığında dayanan Makronun çıxış yolu Aİ daxilində önə çıxmaq, fransız cəmiyyətinin etiraz səsini bu "arqumentlə" qısmaqdır. Əks halda...

Beləliklə, Paşinyan-Makron cütlüyünün yeni "Paris sərgüzəşti"nin əsas məqamları yeni dövrdə özləri üçün "yer müəyyən" etməkdən ibarətdir. Makronun vəziyyəti daha kritik görünür - Ermənistanın isə hələ də şansı var. Şərtlərə əməl etməklə və sülhə imza atmaqla Cənubi Qafqazın ümumi inkişaf tempinə qoşulacaq İrəvan bu yolla həm özünün dövlətçiliyini xilas edə bilər, həm də Fransanın boyunduruğundan xilas olma ehtimalı yaranar...

*PƏRVİZ SADAYOĞLU*

# Ukrayna Rusiya ilə razılaşmaq istəyir?

## Trampın Zelenski ilə görüşdən sonrakı açıqlaması yeni vəziyyətdən xəbər verir

Rusiya-Ukrayna müharibəsində rəsmi Kiyev hər hansı irəliləyişə nail ola bilmir. Qərbin hərbi yardımına baxmayaraq, Rusiya orudusu Ukrayna ərazilərini ələ keçirməkdə davam edir. Müharibədə Kiyevə ən çox hərbi dəstək verən dövlət isə ABŞ-dır. Lakin Bayden administrasiyanın təxminən bir aydan sonra hakimiyyətdən gedəcəyini nəzərə alsaq, növbəti ildə Ukraynanın çətin sınaqlarla üz-üzə qalacağını demək mümkündür. Çünki yeni Prezident Donald Tramp bu müharibənin tezliklə dayandıracağını bəyan edib.

## Zelenski: Müharibənin tez və ədalətli şəkildə bitməsini istəyirik

Yeri gəlmişkən, bugünlərdə Donald Tramp Parisdə Ukrayna Prezidenti Zelenski ilə görüşüb. Bu görüşdən sonra Tramp Ukrayna və Rusiyanı atəşkəsə və bunun üçün şərtləri açıqlamağa çağırıb. O, sosial mediadakı paylaşımında yazıb ki, Ukrayna münaqişəni dayandırmaq üçün Rusiya ilə razılaşmaq istəyir.

V.Zelenski isə görüşlə bağlı "X" səhifəsində qeyd edib ki, Kiyev müharibənin tez və ədalətli şəkildə bitməsini istəyir: "Güc vasitəsilə sülh mümkündür. Birgə işi davam etdirməklə bağlı razılıq əldə olunub".

Xatırladaq ki, Tramp hələ seçki kampaniyası zamanı bu müharibənin tezliklə dayandırılması haqqında fikirlərini dəfələrlə bildirmiş, Zelenski ilə bu mövzuda müzakirələr də aparmışdı. Tramp müharibəni 24 saat ərzində dayandıracağını da bəyan edib. O, müharibəni bitirmək planı çərçivəsində Rusiyaya qarşı sanksiyaların yumşaldılmasının mümkünlüyünü açıqlayıb. Tramp hesab edir ki, sanksiyalar çox vaxt ABŞ-ın təcrid olunmasına gətirib çıxarır və o, sanksiyaların tərəfdarı deyil. Tramp Rusiya Prezidenti Vladimir Putinlə münasibətlərini də xatırladıb və vurğulayıb ki, onun prezidentliyi dövründə müharibə təhlükəsi olmayıb və Rusiya heç vaxt Ukraynanı işğal etməyəcəkdi.

**"Güc vasitəsilə sülh mümkündür. Birgə işi davam etdirməklə bağlı razılıq əldə olunub"**

Yeni prezidentin fikrincə, Ukrayna münaqişəsi zamanı dünya daha təhlükəli olub və buna görə ABŞ-ın hazırkı prezidenti Co Baydeni günahlandırıb. "Bloomberg" isə yazırdı ki, Trampın planına Ukraynanı hərbi yardımı kəsmək təhlükəsi altında Moskva ilə danışıqlara məcbur etmək daxildir. Digər tərəfdən, Tramp Ukraynaya silah tədarükünü artıracağı ilə hədələməklə Rusiyanı danışıqlar masasına oturtmaq niyyətindədir.



Təsadüfi deyil ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov amerikalı jurnalist Taker Karlsona müsahibəsində ABŞ-ın yeni administrasiyası ilə bağlı sualı cavablandırarkən qeyd edib ki, Moskva Donald Trampla bağlı siyasətində konkret addımlara əsaslanacaq: "Düşünürəm ki, o, nəticə əldə etmək istəyən, işləri təxirə salmağı xoşlamayan güclü bir insandır. Bu mənim fikrimdir.




## Rusiya ABŞ-la normal münasibətlərin mövcud olmasını istəyir

Söhbətdə olduqca mehribandır. Lakin bu, Donald Trampın rusiyapərəst olması demək deyil. Bəziləri onu belə göstərməyə çalışır. Tramp administrasiyası dövründə tətbiq edilən anti-Rusiya sanksiyalarının sayı çox böyük idi". Onun sözlərinə görə, Ukraynadakı münaqişənin sülh yolu ilə həlli yalnız Kiyevin NATO-ya üzv olmaqdan imtina etməsi və ölkədəki Qərb hərbi bazalarının bağlanması ilə mümkündür.

Nazir, həmçinin vurğulayıb ki, Moskva ABŞ-la müharibə barədə düşünmür, çünki bu, nüvə müharibəsi ola bilər. Eyni zamanda, onun sözlərinə görə, "Oreşnik" zərbəsi Rusiyanın Qərbin "strateji məğlubiyyətinə" nail olmasının qarşısını almaq üçün istənilən vasitədən istifadə etməyə hazır olduğunu nümayiş etdirdi. "Biz ABŞ-la nüvə xarakterli ola biləcək müharibə haqqında düşünmürük. Bizim hərbi doktrinamızda deyilir ki, ən başlıcası nüvə müharibəsindən çəkinməkdir", - deyə S.Lavrov bildirib. Eyni zamanda, o söyləyib ki, Rusiya ABŞ-la normal münasibətlərin mövcud olmasını istərdi və bu ölkələrin əməkdaşlıq edə bilməməsi üçün heç bir səbəb görmür. XİN rəhbəri onu da bildirib ki, ABŞ və Rusiya arasında qapalı kanallar vasitəsilə əsasən əsirlərin mübadiləsi müzakirə olunur.

**Tramp hesab edir ki, sanksiyalar çox vaxt ABŞ-ın təcrid olunmasına gətirib çıxarır və o, sanksiyaların tərəfdarı deyil**

**Moskva ABŞ-la müharibə barədə düşünmür, çünki bu, nüvə müharibəsi ola bilər**

## Kuleba: Tramp münaqişəni nə 24 saata, nə də 72 saata həll edə bilməyəcək

Ukraynanın keçmiş xarici işlər naziri Dmitri Kuleba "Die Presse" qəzetinə müsahibəsində deyib ki, ABŞ-ın gələcək prezidenti Donald Tramp Ukraynadakı münaqişəni nə 24 saata, nə 48 saata, nə də 72 saata həll edə bilməyəcək. Onun fikrincə, Trampın ilk açıqlamaları və telefon zəngləri böyük səs-küyə səbəb olsa da, hələlik bunlar sadəcə sözlərdir: "Müharibənin tez bitməyəcəyi aydındır. Bu, sadəcə olaraq mümkün deyil. Trampın hansı planı ortaya atmasından asılı olmayaraq, reallıq yoxlamasından keçməli olacaq".

Lakin Qərb dövlətlərinin, xüsusilə ABŞ-ın Kiyevə silah yardımını dayandırması isə Ukraynanın qısa müddətdə məğlubiyyəti ilə nəticələnə bilər. Bu, Ukraynanın keçmiş XİN başçısına da yaxşı məlumdur. Ona görə də, rəsmi Kiyevin ABŞ-ın sülh planını qəbul etməsi ehtimalı çox yüksəkdir.

*N.BAYRAMLI*

# Ruhu üzünə çıxan dünya

## Moris Meterlinkin "Göy quş" nağıl-pyesi haqqında

**əvvəli ötən sayımızda**

Göy Quşun sorağıyla uşaqlar Xoşbəxtlik Bağçasına gedib çıxırlar (Bu yerdə Füzulinin "Hədiqətüs-süəda" - "Xoşbəxtlər bağçası" əsəri yadıma düşdü. Bütün mistiklər kimi müsəlman şərqinin təsəvvüf əhli də hər zaman xoşbəxtliyin sehirli iksirinin, bəxtiyarlığın sirli düsturunun axtarışında olub). Buranın sakinləri xoşbəxtliyin, bəxtiyarlığın bəzi növlərindən Tiltilin xəbərsiz olmağına təəccüblənirlər: məsələn, sağlam yaşama xoşbəxtliyi, ata-ananı sevmə xoşbəxtliyi, günəşli günlərdə aydın səmaya baxma xoşbəxtliyi, buludsuz gecələrdə ulduzları seyrə dalma xoşbəxtliyi, yağış suyunda çimmə, şehli çəməndə ayaqyalın gəzmə xoşbəxtliyi...

Bəli, biz çox vaxt ovcumuzun içində olan məsudluğu kənarda, uzaqlarda axtarırıq. Bəzən bir ulduz sayrışması da içimizi aydınlatmağa yetir, bir şərtlə ki, ulduzlu göyə qəlbimizin gözüylə, həmin o sehirli almazın işığında baxaq. Bu dünyada xoşbəxtlik vara-pula alınmır, o bəlkə də Tanrının yeganə nemətidir ki, hamıya bərabər, hamıya pulsuz paylanır.

Xoşbəxtlik bağçasında növbənöv, çeşid-çeşid sevinclər yumşaq yaz yeli kimi sağdan-sola, soldan-sağa əsdikcə əsir, könülləri məst eləyir: ədalətli olmaq sevinci, xeyirxah olmaq sevinci, anlayıb-anlanmaq sevinci, sevib-sevilmək sevinci... Bütün bu sevinclər İşıq Cövhərindən büründüyü örtüyü atmağı, gizlədiyi həqiqətlərin üzündən niqabı götürməyi xahiş eləyirlər. Ancaq İşığın Ruhu çadrasına daha da bərk bükülüb, həqiqəti bütün çılpaqlığıyla günə sərməyin hələ vaxtı yetişmədiyini deyir. Söz verir ki, bir gün onların arasında çıl-çılpaq, anadangəlmə peyda olacaq.

***

Sonra Tiltillə Mitil İşıq Cövhərinin bələdçiliyiylə Gələcək Səltənətinin mavi sarayına yol tapırlar. Lacivərd çöhrəli uşaqlar onların üstünə yüyürüşürlər. Bunlar yer kürəsində nə vaxtsa doğulası körpələrin ruhudur. Fəqət dolu dünyaya əliboş getmək olmaz, ona görə də uşaqlar nəsə kəşf eləməyə, getdikləri planetə bir töhfə aparmağa çalışırlar: biri xoşbəxtlik maşını, o biri ömrü uzatmağın otuz üç üsulunu, bir başqası qanadsız uçan dəmir quş, dördüncüsü nəhəng üzüm icad eləyib. Bu ixtiralar bir gün yer üzündə gerçək olacaq.

Bir-birinə aşiq olmuş oğlanla qız qucaqlaşıb durublar, ara vermədən elə hey öpüşüb vidalaşırlar, baxışmaqdan doymurlar. Onlar yer kürəsində ayrı-ayrı zamanlarda yaşayacaqlar, bir-birini görməyəcəklər, ona görə də göylər səltənətindən ayrılmaq istəmirlər. Di gəl, burada hər şey saniyəsinə qədər hesablanıb, heç kəs hökmdən yayına bilməz.

Tiltillə Mitil Gələcək Səltənətində bir neçə ay sonra dünyaya gələsi qardaşlarıyla da görüşürlər. Qardaşlığa namizəd doğulacağı günü saatına qədər dəqiq deyir. Ancaq təəssüf ki, onların birgəliyi çox çəkməyəcək, oğlan yoluxucu xəstəlikdən öləcək...

Uşaqların doğulduğu an gələndə Zaman adlı saqqallı qoca əlində qum saatı sarayda peyda olur. Zaman kişi doğulmaq vaxtı çatan uşaqları bir hava gəmisinə mindirib yer üzünə yola salır. Uzaqlardan nəğmə səsləri gəlir - bu, sevimli körpələrini qarşılayan anaların nəğməsidir. Qoca Zaman Tiltillə Mitili sarayda görəndə heyrətlənir, uşaqlar sehirli almazın yardımıyla aradan çıxırlar.

Gələcək səltənətindəki danışıqlardan belə anlaşılır ki, bu dünyaya hər kəsin gəlişi də, gedişi də göylər səltənətində dəqiqəsinə, saniyəsinə qədər dəqiqliklə hesablanıb, heç kim bu vaxtı-zamanı bir saniyə irəli-geri çəkə bilməz. Bu da Moris Meterlinki ideyalar aləminin, lövhi-məhfuzun şəninə himnlər yazan peyğəmbər xislətli qələm ustalarına doğmalaşdırır, onların uca mərtəbəsində ona da yer olduğunu göstərir.

***

Artıq səhərə az qalıb, evə dönmək vaxtıdır. Tiltil həyətlərinin doqqazını güclə tanıyır. Bacı-qardaş səfər yoldaşlarından kədərlə ayrılır. Çörək Göy Quş üçün götürdüyü qəfəsi Tiltilə verir; onlar bir gecəlik ruhani səfərdən əliboş qayıdıblar, bütün acılara məlhəm olası xoşbəxtlik quşunu tapa bilməyiblər. İşıq Cövhəri deyir ki, görünür, axtardığımız Göy Quş ya heç yerli-dibli yoxdur, ya da quyruq ələ verəndə, qəfəsə salınanda rəngini dəyişir. Əşyaların, heyvanların ruhları uşaqlarla vidalaşır. Hər biri sükut səltənətinə çəkilir.

Saat səkkizi vurur. Ana Tiltillə Mitili yuxudan oyadır. Kasıb komaları da, anaları da uşaqların gözünə bir ayrı cür görünür. Onlar gecə səfərində gördüklərini söyləməyə başlayanda ananı həyəcan bürüyür, düşünür ki, uşaqlara bir gecədə nəsə olub, balalarına bəlkə də zaval dəyib, ona görə də həkim dalınca adam göndərir. Tiltil ata-anasına müjdə verir ki, tezliklə bir qardaşı dünyaya gələcək.

Bu vaxt gecə onlara gələn pərinin ilkin surətinə bənzər qonşu qadın içəri girir. Tiltil onu inandırmağa çalışır ki, nə qədər əzmlə axtarsalar da, Göy Quşu tapa bilməyiblər. Qadın anlayır ki, Tiltil yuxusunu qarışdırıb, ardınca da nəvəsinin halından söz açır: həkim deyir qızın əsəbləri pozulub. Anası Tiltili dilə tutur ki, evdə saxladığı quşu bu qadının xəstə düşmüş nəvəsinə bağışlasın. Oğlan qəfəsdəki göyərçinə baxanda birdən ona elə gəlir axtardığı Göy Quş elə bu quşdur. Quşu qəfəsi qarışıq qonşu nənəyə verir.

***

Artıq uşaqlar doğma evlərinə də, evdə nə varsa hamısına - çörəyə, suya, ocağa, qəndə, südə, itə, pişiyə də bir ayrı gözlə baxırlar. İndi onlar canlı-cansız varlıqların təkcə qabığını yox, cövhərini, ruhunu da görürlər. Sən demə, onların böyük səfəri elə kasıb komalarında, ocaqlarının qırağında mürgüləyən möcüzələri tanımaqdan, əllərinin altında, ovuclarının içində qəfəsdəki quş kimi çırpınan xoşbəxtliyi kəşf eləməkdən ötrüymüş. Başqa sözlə, bütün ruhani səfərlər kimi bu səfər də insanın özündən özünə səfəriymiş.

Az keçmiş qapı döyülür, qonşudakı nənə xəstə nəvəsinin əlindən tutub içəri girir. Qız minnətdarlıq hissiylə Tiltilin bağışladığı göyərçini köksünə sıxıb sığallayır. Bacı-qardaşa bu qız gecə gördükləri İşıq Cövhərini xatırladır. Tiltil qıza quşu necə yemləmək lazım olduğunu göstərmək istəyəndə göyərçin fürsət tapıb uçub gedir. Qız hönkür-hönkür ağlayır, Tiltil onu inandırmağa çalışır ki, o quşu bir gün tapacaq.

Sonda baş qəhrəman oxuculara, tamaşaçılara üz tutur: "Sizdən xahişim budur: aranızdan kimsə o quşu tapsa, bizə gətirsin. O quş bizə gələcəkdə xoşbəxt olmaq üçün lazımdır..."

***

Göründüyü kimi, "Göy quş" nağıl-pyesi başdan-başa simvollardan ibarətdir, bu yazıda onların çox az qisminə toxuna bildik. Bütün rəmzlərin üstündən örtüyü götürməyə də ciddi ehtiyac duymadıq, zatən bu əsərdəki simvollar özləri dil açıb danışır, özləri özlərini hamıdan yaxşı təqdim eləyir. Oxucuya, tamaşaçıya onları sadəcə sənətin dilindən həyatın dilinə "tərcümə eləmək" qalır. Tənqid, sənətşünaslıq da bu yerdə kara gəlir, sənətin dilini çətin tutan adamlar üçün tərcüməçi rolunu oynayır.

Yazıq o günə ki, "tərcümə" "orijinal"ı təhrif eləyə, ya da ondan güclü çıxa. Çıxacaqsa, demək, ortada haramxorluq, sənətə xəyanət var. Bəziləri düşünür ki, bu dövrdə nə yazmaq, necə yazmaq vacib deyil, əsas gördüyün işi gözə soxmaq, necə deyərlər, gözə kül üfürməkdir. Belə qısır məqsədlə düzlənmiş növbəni görmək həm ürək, həm də göz ağrıdır. Əsərin təqdimatının keyfiyyəti onun özünün dəyərindən üstün olmamalıdır; olarsa, demək, bu, təqdimat deyil, oxucunu, tamaşaçını aldatmaqdır. Belə fırıldaqlarsa indiki vaxtda nə qırx gün, heç qırx dəqiqə, qırx saniyə də yerimir.



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Bütöv, toxunulmaz, sərbəst...

## Ümumdünya İnsan Hüquqları Günüdür

*Yeganə BAYRAMOVA*

Hər bir insan dünyaya gəldiyi gündən ona məxsus olan hüquq və azadlıqları ilə yaşamalıdır. İrqindən, dinindən, yaşından və cinsindən asılı olmayaraq, Yer üzündə bütün insanların hüquqları var. İnsanın hüquq və azadlıqları bütövdür, toxunulmazdır, sərbəstdir. Hətta hər hansı səbəbdən cinayət törədərək həbsxanaya düşən insanın da öz hüquqları var.

Hüququ olmaq, qanadlı quş olub mavi səmada pərvazlanıb uçmaq kimidir. Yaranışından kamil olan insanın yaşamaq, təhsil almaq, ailə qurmaq, övlad dünyaya gətirmək və s. hüquqları var. İntellektli, dünyagörüşlü insan daim öz üzərində çalışaraq irəliyə doğru can atır, qurub yaradır. Azad, hüquqlu, bilikli insan cəmiyyət, dövlət üçün gərəkli işlər görür, ölkəsinin müstəqilliyi, inkişafı üçün öhdəsinə düşən vəzifəni yerinə yetirməyə çalışır.

Yeri gəlmişkən, dekabrın 10-u Ümumdünya İnsan Hüquqları Günüdür. 1948-ci ildə BMT-nin Baş Məclisi tərəfindən İnsan Hüquqları üzrə Ümumi Bəyannamə qəbul olunub. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-da bütün dünyada “Beynəlxalq İnsan Hüquqları Günü” kimi qeyd olunur.

**Cəmiyyətin əsas meyarı...**

İnsan hüquqlarının əsas mahiyyəti ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar. Vətəndaşın hüquqları onun müəyyən dövlətə məxsusluğu ilə bağlıdır və vətəndaşlar dövlət tərəfindən müdafiə olunur. İnsan hüquqları ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanır. Bu dəyərlər qanunla müəyyən edilir və qorunur. Beynəlxalq ictimai hüquqda onları təsdiqləyən ən məşhur sənəd BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir.

Bərabərlik demokratiyanın ən vacib prinsipidir və bütün vətəndaşlar irqindən, milliyyətindən, cinsindən, yaşayış yerindən, cəmiyyətdəki mövqeyindən, dini və siyasi etiqadından asılı olmayaraq qanun qarşısında bərabərdir. Bu prinsipin pozulması ayrı-seçkilik adlanır. Bərabərlik insan hüquqlarını və məhdudiyyətlərini ehtiva edir.

**Qanunlar olmayan yerdə azadlıq da yoxdur**

Avropada ilk dəfə insan hüquqları anlayışı intibah dövrünə təsadüf edir və ilk dəfə olaraq “insan hüquqları” ifadəsinə 1789-cu ildə qəbul edilmiş Fransanın İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində rast gəlinib. 17-ci əsrdə yaşamış ingilis filosofu Con Lokk öz əsərində təbii hüquqları yaşamaq, azadlıq və mülkiyyət hüquqları kimi xarakterizə edib. Con Lokk iddia edirdi ki, bu əsas hüquqlar ictimai müqavilədə əks etdirilə bilməz. 1689-cu ildə Böyük Britaniyada qəbul edilmiş hüquqlar haqqında qanuna görə, dövlət orqanlarının zülmkar hərəkətləri qanunsuz hesab edilib.

**Müasir dünyaya qovuşmağın əsas yolu...**

Azərbaycanda həyata keçirilən sosial islahatlar xalqın maddi rifahının yaxşılaşdırılmasına, vətəndaşların iqtisadi və sosial hüquqlarının müdafiəsinə zəmin yaradır. Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 20-dək beynəlxalq konvensiya və sazişlərə qoşulub. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirib. Konstitusiyamızın dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə idi. Dövlətimiz tərəfindən insan hüquqlarının qorunması, hüquq və azadlıqların təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirilib. Aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalıb. Vətəndaşların maddi rifah halı yüksəlib, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi təkmilləşdirilib. İnsan kapitalının və sosial infrastrukturun inkişafına nail olunub, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilib. Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyev tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiya bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir.

# Unutsaq, terror yenidən qayıdar!

1890-1892-ci illər. “Hnçak” erməni terror təşkilatı üç ildə 65 min silahsız müsəlmanı - türkləri və kürdləri məhv etmişdir. Sonralar məlum olduğu kimi, “Hnçak” dinc əhaliyə qarşı bu qanlı əməliyyatlara Türkiyə təbəəsi olan etnik erməniləri cəlb etmiş və onlardan xüsusi cəza dəstələri yaratmışdı.

“Hnçak” terror təşkilatının erməni cəza dəstələrinin qurbanları arasında qocalar, qadınlar, uşaqlar da vardı. Fəlakətlər dəhşətli edam və işgəncələrlə müşayiət olunurdu. Müsəlman din xadimlərinin əl-ayaqlarını bağlayır, onları islam nəşrlərindən və əlyazmalarından qaladıqları tonqallara atırdılar. Cinayətlər o dərəcədə aşkar törədilirdi ki, “Hnçak”ın rəhbərləri ictimaiyyət tərəfindən ifşa ediləcəklərindən qorxaraq, xarici ölkələrə qaçmağa məcbur oldular. Onların əksəriyyəti adlarını dəyişdirib, fransız, italyan, ərəb, türk adları götürürdü. Səciyyəvi haldır ki, yüz il keçəcək və erməni diasporu yaratmaq ssenarisi yenə də dəyişməyəcəkdir. Yaraqlılar növbəti dəfə münaqişə törədərək, xaricə gedirlər. “Nedelya” qəzetinin 1989-cu ildə yazdığı kimi, “...ermənilərin, əsasən, məhz haraya köçüb getdiklərini bilmək, yəqin ki, maraqlı olardı? Bir qayda olaraq, Amerikaya və Kanadaya. Əlbəttə, Avropaya da gedirlər... Ermənilər dünyanın hər yerinə səpələnmişlər”. Yeri gəlmişkən, erməni terror təşkilatlarının bəzi liderləri açıq etiraf edirlər ki, lap əvvəldən öz xalqını təhlükəli cinayət yolu ilə - kütləvi qətlamlar, repressiyalar yolu ilə aparmış, bununla da, erməni xalqını bütün bəşəriyyətə qarşı qoymuşlar. Məsələn, Ovanes Kaçaznuni 1923-cü ildə Buxarestdə qurultaydakı çıxışında deyəcəkdir: “...Biz öz beynimizdə xülyalarla dolu mühit yaratmışıq. Biz arzularımızı başqalarının ağıl-zəkasına yeritmişik; biz reallıq hissini itirmişik...”. Özünün inqilabi qəddarlığı ilə məşhur olan V.İ.Lenin “Hnçak”ın liderləri ilə tanış olduğundan bunu çox-çox əvvəl başa düşmüşdü, axı, artıq onların bir qismi “Erməni sosial-demokrat federasiyası” deyilən qurumun bayrağı altında çıxış edirdi. O, həmin illərdə ümümdünya inqilabı ideyasının nüfuzdan salınacağından qorxaraq, öz silahdaşlarına xəbədarlıq edirdi: “Erməni sosial-demokrat federasiyası” barəsində bərk xəbərdarlıq edirəm. Əgər siz onun konfransda iştirak etməsinə razı olmusunuzsa, dəhşətli səhv etmisiniz və bu səhvi necə olursa-olsun düzəltmək lazımdır. Onlar- iki nəfər Cenevrə pozğunçusu olub, burada ən boş şeylər nəşr edirlər... əgər siz bu adamları rus konfransına, yəni Rusiyada işləyən təşkilatların konfransına buraxsanız, işi tamamilə korlarsınız. Qafqazlı yoldaşların hamısı bu pozğunçu ədəbiyyatçı quldur dəstəsinin əleyhinədir”.

1890-cı il. Tiflis. Gürcüstan. Xristofor Mikaelyan, Simon Zavareyan və Stefan Zoryan “Daşnaksütyun” təşkilatının - öz səhifələri olan “Armenak”ın, “Hnçak”ın terrorçuluq, faşist ənənələrini davam etdirmiş “Erməni İnqilab İttifaqı”nın bünövrəsini qoydular. Erməni müəllif M.Vardanyan “Daşnaksütyunun tarixi” adlı tədqiqatında daşnak təşkilatının əsas xüsusiyyətlərini belə ümumiləşdirmişdir: “Daşnaksutyun Komitəsinin ən mühüm şüarı, hər hansı xarici şəraitdən asılı olmayaraq, türkləri güllələməkdən və məhv etməkdən ibarətdir”. 1892-ci ildə keçirilən I qurultayda daşnaklar “silahlı birləşmələrin təlimi və hazırlığı, inqilabi komitələr yaradılması, hökumət məmurlarına qarşı terrordan istifadə edilməsi...” strategiyasını işləyib bəyəndilər. Rusiyanın arxiv sənədlərinə görə, 1892-ci il qurultayının nümayəndələri “ermənilərin silahlandırılması və təşkilatlandırılması, terror aktlarının keçirilməsi və hökumət məmurlarının və idarələrinin müflisləşdirilməsi” haqqında müddəalar qəbul etmişlər. Partiyanın nizamnaməsindəki protokol diqqəti özünə çəkir: Yüksək konspirasiya tətbiq edilmişdir; bəzi protokollar Qərb bürosunun arxivinə verilmişdir. Beləliklə, ən mühüm sənədlər öz təşkilatının hətta ali orqanlarından da gizlədilmişdir: 1) necə hərəkət etməli (taktika); 2) quruluş; 3) intizam; 4) qismən terror. Yunanlarla, makedoniyalılarla, gənc türklərlə və başqaları ilə yerli ittifaqa girmək və onları öz rəhbərliyi altına almaq vəzifəsi irəli sürülmüşdü( özü də, onlara sezdirmədən, öz taktikasının məxfiliyi sayəsində)... Partiya müvəffəqiyyətlə işləyir və genişlənir, özünün bütün enerjisini Türkiyəyə qarşı yönəldirdi. Rusiyaya gəldikdə isə, o, açıq çıxışlar etmirdi, əhalini ələ almaqla, onu təşkilatlandırmaqla kifayətlənirdi”. Qurultayda tarixdə ilk “fədailər hərəkatı”nın-erməni kamikadzelərinin olduğu rəsmən açıqlandı. “Fədailər” cəfəng-patoloji bir ideyanın - dənizdən dənizə “böyük Ermənistan” ideyasının həyata keçirilməsi naminə günahsız insanları müntəzəm sürətdə məhv etməyə başlayaraq xüsusi ad çıxardılar. Özü də elə bir halda ki, “Daşnaksutyun” erməni təşkilatı yaradıldıqdan hətta dörd il sonra Amerikanın “Boston Herald” qəzeti 1894-cü il fevralın 15-də xüsusi nəzərə çarpmışdı: “Ermənilərin böyük əksəriyyəti oxumağı və yazmağı bacarmır və əgər Ermənistan yalnız ermənilərin məskunlaşdığı hətta ayrıca bir ölkə olsa belə, onlar özünüidarəyə çətin ki, hazır olsunlar”. Buna baxmayaraq, “Daşnaksütyun” təşkilatının ideoloqları “etnik təmiz zonalar” ssenarisinin hazırlanması və həyata keçirilməsi üzərində işi davam etdirirdilər. Elə zonalar ki, orada ermənilərdən savayı, heç bir digər millətə və etnik qrupa yer ola bilməzdi.



Erməni irqçiliyi ideyaları öz inkişafını da daşnakların 1919-cu ildə Yerevanda keçirilən IX Ümumdünya konqresində tapdı. Məhz bu yığıncaqda “Nemeses” terror qrupuna əvvəllər öz ölkəsinin hökumətində aparıcı vəzifələrdə işləmiş bütün mühacir türkləri məhv etmək tapşırıldı. Antitürk kampaniyasına erməni mənşəli amerikan Saxan Natali başçılıq edirdi. Bununla da, sərhədlərsiz terrorun bünövrəsi qoyuldu: sonralar təkcə türklər deyil, dünyanın bütün ölkələrinin ən müxtəlif millətlərinin nümayəndələri də bu terror təşkilatının qurbanları oldular.

Beləliklə, bu üzdəniraq “partiya”nın təşəkkül tarixi və fəaliyyəti göstərir ki, terrorun, mülkiyyətdən, əmlakdan məhrumetmə, kütləvi qətlamların təşkili və həyata keçirilməsi “Daşnaksütyun”un siyasi mübarizəsinin əsas metodu olmuşdur və olaraq qalır. O öz proqram müddəalarının gerçəkləşdirilməsinə nail olmaq üçün planlı surətdə yaradılmış və bütün dünyada fəaliyyət göstərən erməni terror təşkilatları şəbəkəsindən fəal istifadə edir. Həmin təşkilatın yaradılması tarixi, onun proqramı və gələcək cinayətkar fəaliyyət praktikası “Daşnaksütyun”u beynəlxalq erməni terror təşkilatı hesab etməyə metodoloji əsaslar verir.



Mart 1893-cü il. Ankara. Türkiyə. Erməni quldur birləşmələri Ankara civarında müsəlmanların kütləvi qətliamını təşkil etmişlər. Qətliamın təşkilatçıları, əsasən, “Hnçak” erməni terror təşkilatının yaraqlıları olmuşlar. Tədqiqatçı Qəribinin yazdığına görə, erməni təşkilatları iki prinsip hazırlamışdılar: 1) qiyamlar qaldırmaq; 2) “bu qiyamlar və qırğınlar barədə haray-həşir salmaq, onların miqyasını mütləq şişirtmək... Onlar bu fikirdə idilər ki, siyasət başdan ayağa yalandır, xalqın taleyini yalan yolu ilə xilas etmək olar”.




18 sentyabr 1894-cü il. İstanbul. Türkiyə. Erməni terrorizminin ideoloqları müsəlmanlara qarşı qanlı küçə qırğını təşkil etmişlər və bu, bir gündən çox sürmüşdür. Sonralar Ağ Hisarda türkləri və kürdləri qırıb-çatmışlar. Öldürülənlər arasında saysız-hesabsız qadınlar, qocalar və uşaqlar vardı. Cinayətləri “Hnçak” erməni terror təşkilatının yaraqlıları törətmişdilər.

Oktyabr 1894-cü il. Trabzon. Türkiyə. Trabzon şəhərində və onun ətraflarında mülki əhali kütləvi sürətdə qətlə yetirilmişdir. Qanlı qırğının təşkilatçıları erməni dövlətinin yaradılması üçün “etnik cəhətdən təmiz” ərazi proqramını həyata keçirən “Hnçak” erməni terror təşkilatının yerli şöbələri olmuşlar. Lakin bu məqsədə çatmaq üçün “bütöv ərazi” lazımdır. Fransa Xarici İşlər Nazirliyinin 1897-ci ildə açıqlanmış sənədlərində deyildiyi kimi, Türkiyə ərazisində nəinki erməni dövləti, hətta erməni muxtariyyəti yaradılması üçün əsaslar yox idi. Həmin sənədlərin ikinci səhifəsində göstərildiyi kimi, “müxtəlif tayfaların bölgüsünün dərindən öyrənilməsi təsdiq etməyə imkan verir ki, Türkiyə imperatorluğunun heç bir vilayətində ermənilər əhalinin əksəriyyətini təşkil etmirlər”...


**davamı növbəti saylarımızda**


# Diqqət, top qapıdadır...

*Yeganə BAYRAMOVA*

İdman hər kəsin həyatında böyük rol oynayır. Belə ki, idmanın uşaqlara akademik səviyyədə fayda verdiyi elmi faktdır. Bu idman növləri içərisində futbol xüsusilə fərqlənir. Futbol uşağın zehni, emosional və sosial keyfiyyətlərinin inkişafı üçün təməl rolunu oynayır.




**Dostluq, qardaşlıq, kollektiv əmək...**

Futbolun insanlar üçün öyrədə biləcəyi çox məqam da var: sahiblik, münaqişələrin həlli, emosional cavabların idarə edilməsi, konstruktiv tənqidi qəbul etmək, başqalarına hörmət etmək, motivasiya yaratmaq və s. Bu baxımdan futbol aktiv həyat tərzini təşviq edir, ünsiyyət bacarıqlarını inkişaf etdirir. Futbolda fəaliyyətin kollektiv forması onlarda dostluq, qardaşlıq, qarşılıqlı yardım xüsusiyyətlərini tərbiyə etməklə bərabər, başqa lazımi keyfiyyətləri formalaşdırır. Bu isə futbolçularda əsaslı əhəmiyyət daşıyan şəxsi marağın kollektiv maraqlara tabe olmaq kimi vərdişlərini aşılayır.

Dekabrın 10-u Ümumdünya futbol günü kimi qeyd olunur. Bu əlamətdar gün Birləşmiş Millətlər Təşkilatının qərarına əsasən təsis edilib. Qərar planetin ən populyar idman növü olan futbola hörmət əlaməti kimi qəbul olunub.

**“Bütün dünyanı zəbt etmiş”**

Futbol üzrə dünya çempionatını adətən ümumi olaraq “Mundial” adlandırırlar. Bu, ispan mənşəli sözdür. Mənası “bütün dünyanı zəbt etmiş, bürümüş” deməkdir. Bu ifadə pərəstişkarlar tərəfindən 1982-ci ildən etibarən işlədilməyə və qəbul edilməyə başlanıldı. Bundan sonra kəlmə daha da genişləndi və nəticədə futbol üzrə dünya çempionatı bu cür adlandırıldı.

**Futbol geyimlərinin nömrələnmə tarixi**

Futbol geyimləri 90 ildən çoxdur ki, nömrələnir. İlk dəfə rəqəmləmə 1928-ci ildə “Çelsi” ilə “Arsenal”ın görüşündə baş vermişdi. Statistikaya uyğun olaraq London klublarının geyim nömrələri 1-dən 11-ə qədər nömrələnir. Ənənə tam olaraq 10 il sonra ümumi xarakter aldı. Bu gün isə məhz nömrələnmə oyunçuların özünü təsdiqi və dünya ulduzlarının fərqləndirilməsi üçün gərəklidir.

**Başla oyun...**

Bu element yalnız futbola xasdır. İdmanın oyun növlərinin heç birində topun yerdəyişməsi başla edilmir. Oyunun böyük hissəsinin yerdə getdiyinə baxmayaraq, başla oyun futbolun ayrılmaz tərkib hissəsi olaraq qalır, futbolçular öz oyun rollarından asılı olmayaraq, həm hücumda, həm də müdafiə olunarkən havada başla məharətlə oynamağı bacarmalıdırlar.

**Niyə 11 nəfər?**

Futbol komandasında oyunçuların sayının 11 nəfərdən ibarət olması fikrini ilk dəfə ingilislər, daha dəqiq desək, ingiltərəli tələbələr irəli sürüblər.

Futbolun yaranma tarixi 1863-cü il hesab olunur. Çünki həmin ildə ilk Futbol Assosiasiyası yaradılıb və indiki qaydalara uyğun gələn qaydalar tətbiq olunub. Bu qaydalar içərisində Kembric tələbələrindən qalan bircə qayda var idi, o da - oyunçuların sayının 11 nəfər olması. Bəs kembricli tələbələr nə üçün - “komandada oyunçuların sayı 11 nəfər olsun”- qaydasını qoyublar? O zamanlar Kembric Universitetinin yataqxanasında otaqlar 11 çarpayılıq idi. Yəni hər otaqda 11 tələbə qalırdı. Universitetdə isə tələbələr otaqlar arasında futbol yarışması keçirirdilər. Necə deyərlər: - “otaq otağa qarşı, yəni - 11 nəfər 11 nəfərə qarşı”.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4800**
**Sifariş: 2872**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli